**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AQŞİN İSABALA OĞLU QULİYEV**

# XII-XVI ƏSRLƏRDƏ AZƏRBAYCANIN SİYASİ-HÜQUQİ FİKRİNDƏ QANUN VƏ QANUNÇULUQ PROBLEMİ

**İxtisas: 5606.01 – Dövlət və hüquq nəzəriyyəsi tarixi; hüquq və dövlət haqqında təlimlər tarixi**

**hüquq üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun “Dövlət və Hüquq nəzəriyyəsi, mülki hüquq və mülki proses” şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Rəsmi oppponentlər:** | **N.N.Parxomenko**<br>**hüquq üzrə elmlər doktoru, professor** |
| | **Ə.İ.Hüseynov**<br>**hüquq üzrə elmlər doktoru** |
| | **Y.M.Bisaqa**<br>**hüquq üzrə elmlər doktoru, professor.**<br>**Ukraynanın əməkdar hüquqşünası** |
| **Aparıcı təşkilat:** | **Milli Aviasiya Akademiyasının**<br>**“Hüquqşünaslıq” kafedrası** |

Dissertasiya işinin müdafiəsi “ 02__ ” “06__” 2016-cı il tarixdə saat “____” Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat “___” “_________” 2016-cı il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüququ üzrə fəlsəfə doktoru:** **Ə.Q.MƏMMƏDOV**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Elmin hər hansı sahəsinə dair əldə edilmiş uğurların nəticələrinin tətbiqi və onların təhlilinin daha da dərinləşdirilməsi, habelə nailiyyətlərin təkmilləşdirilməsi xüsusi əhəmiyyətə malikdir. Qanun və qanunçuluq bəşər övladını azadlıq, müstəqillik və sosial ədalət kimi nemətlərlə yanaşı surətdə tarix boyu düşündürmüşdür. Cəmiyyətdə həmişə ədalətli qanunlara, möhkəm qanunçuluğa doğru güclü meyllər təzahür etmişdir. İdarəçilik formasından siyasi və dövlət quruluşundan, siyasi rejimindən asılı olmayaraq, hər bir dövlətdə qanunların aliliyi və ciddiliyi, qanunçuluğa əməl edilməsi ən prioritet məsələlərdən biri olmuşdur. Ona görə də hansı dövrə aid olmasından asılı olmayaraq, qanun və qanunçuluq problemi öz yeniliyi, aktuallığı ilə diqqəti cəlb etmişdir.

İctimai şüurun mühüm tərkib hissəsi olan sosial-siyasi və hüquqi fikirlərin, ideyaların, konsepsiya və təlimlərin təşəkkülü, formalaşması və inkişafı çoxəsrlik tarixə malikdir və həmin tarixi proses bu gün də davam edir. Belə təbii-tarixi prosesin gedişini cəmiyyətin özünün fasiləsiz inkişafı və ictimai tərəqqi labüd edir.

Siyasi və hüquqi ideyalar dövlət və hüquq kimi son dərəcə mürəkkəb və çoxşaxəli, həm də ziddiyyətli sosial hadisələrin yaşıdıdır. Məhz bu ziddiyyətlərin və mürəkkəbliklərin nəticəsidir ki, dövlət, hüquq, siyasət və qanun kimi hadisələrlə bağlı yaranmış fikirlərdə, konsepsiyalarda, müxtəlif hüquq məktəblərinin ideyalarında, ayrı-ayrı mütəfəkkirlərin siyasi-hüquqi təlimlərində fikir ayrılıqlarına və ziddiyyətli mövqelərə həmişə təsadüf olunmuş və indi də olunmaqdadır. Elə bunun sayəsində də əldə olunmuş mənəvi dəyərlər ziddiyyətlər məngənəsində inkişaf etdirilmiş və təkmilləşdirilmiş, zaman keçdikcə aktuallıq əldə etmişdir.

İnsan birliklərinin, ictimai münasibətlərin inkişafının bütün tarixi mərhələlərində, müvafiq cəmiyyətdə mövcud olan ayrı-ayrı təbəqələr, sosial qruplar arasında qanun və qanunçuluq məsələsi qlobal problemlərdən biri kimi mübahisə və müzakirələr predmeti olmuşdur. Təsadüfi deyildir ki, qanun qarşısında hamının bərabərliyi, qanunlara hamılıqla riayət edilməsi insan cəmiyyətinin dövlət təsisatını yaratdığı gündən onun bütün inkişaf mərhələlərinin cığırdaşı olmuşdur. Yuxarıda göstərilən tələblərin rəsmi şəkildə hüquqi sənədlərdə təsbit edildiyi dövrlərdə belə o, mütərəqqi hüquqi ideologiyanın, tərəqqipərvər bəşəriyyətin humanist ideallarından biri olmuşdur. Ayrı-ayrı mütəfəkkirlərin mikrokosmundan tutmuş əzəmətli ictimai-siyasi hərəkatların və müxtəlif hüquq məktəblərinin (konsepsiyaların)

təlimlərinədək olan geniş miqyas qanun və qanunçuluq probleminin tədqiq və təhlil edildiyi elmi məkan olmuşdur.

Siyasi və hüquqi fikrin mühüm problemlərindən biri kimi qanun və qanunçuluq ideya-tədqiqat obyekti baxımından özünəməxsus obyektiv zənginləşmə və müasirləşmə mərhələlərinə malikdir. Ona görə də hər hansı mücərrəd deyil, həmişə formalaşdığı və tərəqqi etdiyi sosial sistemdən asılı olaraq müvafiq məzmun kəsb edən qanun və qanunçuluq məsələsi haqqında danışmaq mümkün olduğu qədər də vacibdir.

Müəyyən tarixi dövrün, yaxud mərhələnin və keçid pillələrinin qanun və qanunçuluğa dair ideyalarını, müxtəlif təlim və konsepsiyalarını, eləcə də mütəfəkkirlərin siyasi-hüquqi görüşlərini təhlil edərkən onların ictimai təkamül prosesində dəyişən sosial bazasını həmişə diqqət mərkəzində saxlamaq lazım gəlir. Siyasi və hüquqi mülahizələrdəki eynilikləri, bəzən eyni şəraitdə formalaşmalarına baxmayaraq onların arasında mövcud olan haçalanmaları, ziddiyyətli məqamları diqqətlə nəzərə almamaq qeyri-mümkündür.

Qanun və qanunçuluq məsələsini aktual edən səciyyəvi xüsusiyyətlərdən biri cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarına müvafiq olaraq qanunyaratmanın fasiləsiz bir proses, qanunçuluğun isə daim nəzarət altında olmasıdır. Bəşəriyyətin bütün tarixi dövrlərində dövlətlərin yerinə yetirdikləri funksiyalar içərisində hüquqyaratma həmişə öncül istiqamətlərdən biri olmuşdur. Dövlətlərin tərəqqisi və tənəzzülündən asılı olmayaraq, qanunlarda bu və ya digər dəyişikliklərin edilməsi həmişə qaçılmaz zərurətə çevrilmişdir. Məhz kompleks tədqiqatlar qanun və qanunçuluq kimi mühüm siyasi-hüquqi problemin müxtəlif tarixi dövrlərdə məzmun və mahiyyətində təzahür etmiş səciyyəvi xüsusiyyətləri aşkar etməyə imkan verə bilər.

İnkişafın müasir mərhələsi bir çox dövlət-hüquqi məsələlər kimi, keçmişin mənəvi irsinin problemlərinin, o cümlədən qanun və qanunçuluğun yeni elmi-təcrübi mövqelərdən təhlil olunmasının zəruriliyini labüd etdiyi qədər, həm də müraciət edilən bu mövzunun aktuallığını əks etdirir. Tədqiqat mövzsunun aktuallığı, həmçinin siyasi-hüquqi biliklərin müasir qanunvericilik sisteminin humanistləşdirilməsi təcrübəsinin milli demokratik ideyalara olan ehtiyacının ödənilməsi baxımından özünü təzahür etdirir. Orta əsrlərin mütərəqqi siyasi-hüquqi ideyalarının tədqiq edilməsi əsasında qanun və qanunçuluğun demokratik xüsusiyyətlərinin aşkarlanması ölkədə yeni qanunların formalaşdırılmasının etik əsaslarına xidmət etməsində də öz aktuallığını tapır.

**Mövzunun işlənmə səviyyəsi.** Dövlətşünaslığın və hüquqşünaslığın ən yeni və müasir nailiyyətləri əsasında ümumdünya siyasi və hüquqi təlimlər tarixinin tərkib hissəsi olan Azərbaycanın siyasi və hüquqi təlimlər tarixinin öyrənilməsi, eləcə də onun ayrı-ayrı problemlərinin ətraflı və dərindən tədqiqi böyük nəzəri və təcrübi əhəmiyyətə malikdir.

Azərbaycanın siyasi və hüquqi fikir tarixi hüquq elmləri içərisində hələ az tədqiq edilmiş sahələrdən biridir. Digər hüquq elmləri ilə müqayisədə nisbətən gənc olan bu hüquq elmi sahəsi keçən yüzilliyin 50-ci illərinin sonuna doğru formalaşmışdır. Lakin mütəfəkkirlərimizin əsasən ictimai-siyasi irsinin tədqiqinə keçən əsrin 40-cı illərindən başlanmışdır (bu baxımdan H.N.Hüseynov, M.M.Qasımov, A.O.Makovelski, A.K.Zəkizadə öz monoqrafiya və kitabları ilə ilk tədqiqatçılar kimi ideyalar irsimizin öyrənilməsinə geniş yol açmışlar).

Azərbaycanın ictimai-siyasi fikrinin öyrənilməsinə öz təməlli tədqiqatları ilə Z.M.Bünyadov, A.S.Sumbatzadə, İ.Əliyev və başqaları böyük töhfə vermişlər.

Azərbaycanın ictimai-siyasi və bilavasitə hüquqi fikrinin həm də müstəqil hüquq elmi və tədris fənni kimi formalaşmasında AMEA-nın müxbir üzvü, hüquq elmləri doktoru, professor M.F.Məlikovanın və hüquq elmləri doktoru, professor, əməkdar elm xadimi A.Q.Rzayevin böyük xidmətləri olmuşdur.

Azərbaycanın ictimai-siyasi fikrinin bəzi problemləri müxtəlif illərdə ayrı-ayrı tədqiqatçılar (F.K.Köçərli, E.Əhmədov, Z.B.Göyüşov, M.M.Ağamirov, D.V.Mustafayev, F.B.Qasımzadə, Z.A.Quluzadə, S.D.Rzaquluzadə, Ş.F.Məmmədov, H.Məmmədbəyli, F.Eyvazov, Z.C.Məmmədov, Y.İ.Rüstəmov, A.M.Şükürov, A.M.Aqahi, Ş.N.Hacıyev, F.F.Qasımzadə, C.V.Qəhrəmanov, N.H.Cəfərli, E.R.Bayramov, İ.Təriqpeyma, S.Onullahi, B.C.Şəfizadə, G.A.Abdullazadə) tərəfindən tədqiq edilmiş və başlıca diqqət ictimai-siyasi məsələlərə yetirilmiş, Azərbaycanın siyasi və hüquqi fikir tarixinin hər hansı konkret probleminə kompleks şəkildə yanaşılmışdır.

Azərbaycanın siyasi və hüquqi fikir tarixinin heç bir dövründə, ümumiyyətlə, qanun və qanunçuluq probleminə toxunulmamışdır. Xatırladılan müəlliflərin əsərlərində dövlətin və hüququn mənşəyi ilə əlaqədar bəzi məsələlər işıqlandırılsa da, qanun və qanunçuluq müstəqil bir problem kimi tədqiq edilməmişdir. Bu məsələyə yalnız A.Q.Rzayevin XIII əsr dahi Azərbaycan mütəfəkkiri N.Tusi ilə bağlı monoqrafiyasında bir qədər diqqət yetirilmişdir. Şübhəsiz ki, belə vəziyyətdə ölkəmizin qanunvericiliyin sistemləşdirilməsi və təkmilləşdirilməsilə məşğul olan sahələri qanun və qanunçuluğa dair

milli və mənəvi sərvətimiz olan siyasi-hüquqi fikrimizin mütərəqqi cəhətləri ilə tanış ola, bunu təcrübi fəaliyyətlərində tətbiq edə bilmirlər.

Azərbaycanın ictimai-siyasi fikri ilə əlaqədar bir çox məsələlərə öz tədqiqatlarında H.Araslı, M.Y.Quluzadə, İ.Ə.Rüstəmov, Məmməd Cəfər, M.A.Dadaşzadə, B.Azəroğlu, S.A.Məmmədov, Pənah Xəlilov xeyli yer ayrılmışdır. Adları sadalanan müəlliflərin tədqiqatlarında ictimai-siyasi problemlər istiqamətində əsasən zülm və zorakılığın tənqidi, maarifçilik ideyalarının təhlili məsələsi nəzərdən keçirilmişdir. Bu tədqiqatların müəyyən hissəsində hüquqi məsələlər, ümumiyyətlə, tədqiqat obyekti olmamışdır. Tədqiqatların digər qismində yalnız fəlsəfi problemlərə toxunulmuşdur ki, belə problemləri siyasi-hüquqi fikrimizdə qanun və qanunçuluq probleminin öyrənilməsi baxımından qənaətbəxş hesab etmək qeyri-mümkündür.

Azərbaycanın ictimai-siyasi fikrinin öyrənilməsi nöqteyi-nəzərindən 2002-ci ildə təkrar nəşr edilmiş «История Азербайджанской философии», T.1. – kitabında Azərbaycanın ən qədim dövrünün fəlsəfi fikri, eləcə də «İxvan əs-Səfa» cəmiyyəti ideoloqlarının, Bəhmənayarın, Şihabəddin Sührəvərdinin, Nizami Gəncəvinin və Əfzələddin Xaqaninin fəlsəfi irsinin ictimai-siyasi ideyalardan bəhs edən hissəsi də ətraflı tədqiq edilmiş, kitabın müəllifləri (Z.A.Quluzadə, A.A.Hacıyev, S.C.Rzaquluzadə, A.S.Şakirzadə) tərəfindən mükəmməl araşdırmalar aparılımışdır. Siyasi-hüquqi problemlərin yalnız fəlsəfi fikirlər çərçivəsində kifayət qədər geniş təhlil edilməməsi baxımından, bizi maraqlandıran problemin ətraflı öyrənilməsi üçün kifayət etmək olmaz.

Azərbaycanın klassiklərinin dünyagörüşünün formalaşmasında xidmət etmiş şifahi xalq yaradıcılığının, folklorun qaynaqlarının mükəmməl təhlili verilmiş və 2004-cü ildə təkrar nəşr edilmiş «Azərbaycan ədəbiyyatv tarixi» (1-ci cild) kitabında müəlliflərin (B.Nəbiyev, T.Kərimli, M.Qasımlı, A.Acaloğlu, İ.Abbaslı, O.Əliyev, A.Nəbiyev, N.Cəfərov, K.Vəliyev, T.Hacıyev və başqaları) apardıqları tədqiqatlar ictimai-siyasi və hüquqi fikrimizin rüşeymlərinin mənimsənilməsi nöqteyi-nəzərindən elmimizin inkişafında mühüm hadisədir. Lakin tədqiqatların demək olar ki, hamısı xalis filoloji istiqamətdə aparıldığına görə, onlar bir sıra sosial-siyasi və hüquqi problemlərin öyrənilməsi baxımından kifayət etmir.

Azərbaycanın siyasi və hüquqi fikrinin görkəmli nümayəndələri – Nizaminin, Xaqaninin, Mahmud Şəbüstərinin, Əvhədi Marağayinin, Əssar Təbrizinin, Nəsiminin, Qasim Ənvarın, Füzulinin, Saib Təbrizinin və bir çox başqa mütəfəkkirlərin ictimai-siyasi ideyalarının öyrənilməsi üçün «Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı» (Bakı, «Ozon», 1998) kitabının böyük elmi-nəzəri əhəmiyyəti vardır. Kitabın

müəlliflərinin (Ə.Səfərli, X.Yusifli) ictimai-siyasi fikrimizin bir sıra səciyyəvi cəhətlərini dərindən təhlil etmələri Azərbaycanın siyasi və hüquqi fikri sahəsində araşdırmaları genişləndirməyə imkan yaradır. Lakin bəzi siyasi məsələlərin daha ətraflı tədqiq edilməsi baxımından tədqiqatların dairəsini məhz siyasi-hüquqi istiqamətdə, tədqiq olunan problemlərin həlli nəticələrinin ölkənin qanunvericilik təcrübəsi sahəsində tətbiqi yönümündə genişləndirmək zəruridir. Bunun üçün elmi-nəzəri bünövrənin əsaslarının müəyyən edilməsi xüsusi aktuallıq kəsb edir.

Yuxarıda xatırladılanlar nəzərə alınmaqla, tədqiqatın obyekti və predmeti aşağıdakı kimi müəyyən edilmişdir.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini XII-XVI əsrlərdə Azərbaycanın siyasi-hüquqi fikrinin görkəmli mütəfəkkirlərinin, habelə ictimai-siyasi hərəkatların və siyasi cərəyanların ideyalarında qanun və qanunçuluq probleminə dair mütərəqqi fikirlərinin müəyyən edilməsi və siyasi-hüquqi fikrimizin böyük nümayəndələrinin siyasi-hüquqi görüşlərinin səciyyəvi xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmetini siyasi-hüquqi biliklərin elmi dərketmə qanunauyğunluqlarının tətbiq edilməsi vasitəsilə müasir hüquqyaratmanın milli-etik əsasları üçün əhəmiyyət kəsb edən klassik siyasi və hüquqi fikrin qanun və qanunçuluqla bağlı spesifik cəhətlərinin aşkar olunmasının elmi-nəzəri imkanları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat əsərinin başlıca məqsədi Azərbaycanın orta əsrlər siyasi-hüquqi fikrinin mühüm problemlərindən biri kimi qanun və qanunçuluğa dair ideyaların məzmun və mahiyyətini, mütəfəkkirlərin həmin problemlə bağlı siyasi-hüquqi ideallarını müəyyən etməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün tədqiqat əsərinin aşağıdakı vəzifələri müəyyən edilmişdir:

1) Azərbaycanın XII – XVI əsrlər siyasi-hüquqi fikrində qanun və qanunçuluğa dair ideyaların maarifçi köklərinin xüsusiyyətlərinin müəyyən edilməsi;
2) qanun və qanunçuluğa dair ideyaların etik əsaslarının spesifik cəhətlərinin təhlil edilməsi;
3) qanun və qanunçuluğa dair ideyaların formalaşmasına və inkişafına təsir göstərən müxtəlif ictimai həyat hadisələrinin xüsusiyyətlərinin tədqiq edilməsi;
4) qanun və qanunçuluğa dair ideyaların təşəkkülünün məntiqi qanunauyğunluqlarının müəyyən edilməsi;

5) qanun və qanunçuluq haqqında maarifçi-humanist ideyaların siyasi-hüquqi fikrin sonrakı inkişafında tarixi rolunun müəyyən edilməsi;
6) XVII – XVI əsrlərdə formalaşmış qanun və qanunçuluğa dair ideyaların sonrakı yüzilliklərin analoji ideyalarının təşəkkülü və inkişafına müsbət təsir xüsusiyyətlərinin tədqiq edilməsi;
7) siyasi və hüquqi fikrin qanunvericiliyin əxlaqi və humanist əsaslarına tətbiqi prosesində qanun və qanunçuluq probleminin tarixi aspektlərinin tədqiq edilməsi;
8) siyasi və hüquqi fikrin qanun və qanunçuluq problemi hissəsində obyektiv interpretasiyanın üsullarının tətbiq edilməsi əsasında hüquqyaratmanın demokratik əsaslarının işlənib hazırlanması;
9) Azərbaycanın orta əsrlər siyasi-hüquqi fikrində qanun və qanunçuluq problemi ilə əlaqədar aparılan təhlillər əsasında mütəfəkkirlərin, ictimai-siyasi hərəkatların, dini-fəlsəfi cərəyanların vahid konsepsiyasının müəyyən edilməsi;
10) Azərbaycanın siyasi və hüquqi təlimlər tarixində siyasi-hüquqi problemlərin tədqiq edilməsinin metodoloji və metodiki prinsiplərinin işlənib hazırlanması, siyasi-hüquqi məsələlərə düzgün yanaşmanın üsullarının müəyyən edilməsi;
11) qanun və qanunçuluq problemi ilə əlaqədar tədqiqatlar aparılması sahəsində mükəmməl ölçü və meyalar sisteminin işlənib hazırlanması və bunun əsasında bütövlükdə siyasi və hüquqi fikrin qlobal problemlərinin təhlil edilməsi;
12) Azərbaycanın orta əsrlər siyasi-hüquqi fikrində qanun və qanunçuluqla bağlı humanist və demokratik ideyaların elmi-nəzəri və təcrübi əhəmiyyətinin əsaslandırılması;
13) Azərbaycanın siyasi və hüquqi fikrinin aktual problemlərinin araşdırılması ilə bağlı bəzi çətinliklərin düzgün təhlili və ümumiləşdirilməsi əsasında onların aradan qaldırılması və tədqiqatların genişləndirilməsi üsullarının müəyyən edilməsi;
14) qanun və qanunçuluqla bağlı problemin tədqiqi nəticələrinin ölkənin qanunvericilik orqanının fəaliyyətinə tətbiq edilməsi imkanlarının müəyyən edilməsi, habelə hüquqyaratmada milli xüsusiyyətlərin nəzərə alınması yollarının araşdırılması;
15) Azərbaycanın siyasi və hüquqi təlimlər tarixi fənninin tədrisinin daha da yaxşılaşdırılması baxımından tədris fənninin problemli mövzu tutumunun genişləndirilməsi.

**Tədqiqatın metodologiyası və metodikası.** Tədqiqat əsərinin metodoloji əsasını dövlət və hüquq nəzəriyyəsinin, ümumdövlət və hüquq tarixinin, siyasi və hüquqi təlimlər tarixinin əsas müddəaları təşkil edir. Metodoloji əsaslar işlənərkən, hər şeydən əvvəl, siyasi-hüquqi fikrin öyrənilməsi prosesində xüsusi hüquqi biliklərin tətbiq edilməsinə tələbatların hələ də mövcud olması nöqteyi-nəzərindən çıxış edilmişdir. Bu zaman həm də siyasi və hüquqi təlimlər tarixinə dair xüsusi biliklərin əsasını təşkil edən humanitar elmlərin müasir imkanları təhlil edilmiş, siyasi və hüquqi təlimlər tarixi fənninin predmetinə daxil olan məsələlərin sistemli xarakterinə istinad edilmişdir. Azərbaycanın orta əsrlər siyasi və hüquqi fikrində qanun və qanunçuluğa dair ideyaların əhəmiyyətə malik olan xüsusiyyətləri, onların mahiyyəti tədqiq edilərkən obyektiv yanaşma prinsipindən, determinizm prinsipindən, inkişaf prinsipindən, tarixilik prinsipindən və sistemli yanaşmadan istifadə edilmişdir.

Göstərilən prinsiplər mövqeyindən çıxış etməklə tədqiqatçı hüquqşünasların, filosofların, tarixçilərin və sosioloqların tədqiqatları, o cümlədən orta əsr Azərbaycan mütəffəkkirlərinin əsərləri geniş mütaliə və təhlil edilmişdir.

Dissertasiya tədqiqatının empirik bazasını Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə və -Hüquq İnstitutunun «Dövlət və hüquq nəzəriyyəsi, mülki hüquq və mülki proses» şöbəsində, həmin İnstitutun «Fəlsəfə tarixi» şöbəsində aparılmış tədqiqatlar və araşdırmalar təşkil etmişdir.

Tədqiqat əsərinin nəticələrinin etibarlılığını və mötəbərliyini əks etdirən əsas amillər və meyarlar aşağıdakılardır:

a) Azərbaycan siyasi-hüquqi fikrinin istər qədim, istərsə də orta əsrlər tarixinə aid problemlərin təhlili üzrə tədqiqat işlərinin, monoqrafiyaların son dərəcə az sayda olması;

b) siyasi və hüquqi fikrimizin kompleks şəkildə tədqiq edilməsinə tələbatın son dövrdə xüsusi olaraq artması;

c) Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsilə əlaqədar Vətən tarixinin bütün sahələrinin yenidən araşdırılması zərurətinin yaranması;

ç) siyasi-hüquqi fikirdə ayrı-ayrı tarixi dövrlərin siyasi və hüquqi ideologiyasında qanun və qanunçuluqla bağlı formalaşmış demokratik ideyalardan müasir dövrün hüquqyaratma fəaliyyətində istifadə olunmasına elmi-nəzəri və təcrübi marağın artması.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat əsərinin yeniliyi ondan ibarətdir ki, siyasi və hüquqi fikrin dövlət, hüquq, siyasət, qanun və qanunçuluqla bağlı mütərəqqi ideyaların öyrənilib ümumiləşdirilməsi

əsasında Azərbaycanın siyasi və hüquqi fikrinin orta əsrlərdə formalaşmış qanun və qanunçuluğa dair görüşlərin tədqiqinə həsr edilmiş ilk tədqiqat əsəridir. Dövlət və hüquq nəzəriyyəsinin, ümumdövlət və hüquq tarixinin, siyasi və hüquqi təlimlər tarixinin ən son nailiyyətləri nəzərə alınmaqla, Azərbaycanın orta əsrlər siyasi-hüquqi fikrində təzahür etmiş qanun və qanunçuluqla bağlı ideyaların humanist və demokratik xüsusiyyətləri kompleks şəkildə müəyyən edilmişdir.

Tədqiqat işində ilk dəfə olaraq qanun və qanunçuluqla bağlı siyasi-hüquqi ideyaların məzmunu və mahiyyəti təhlil edilərək elmi-nəzəri cəhətdən ümumiləşdirilmişdir. Aparılmış təhlillər nəticəsində Azərbaycanın XII-XVI əsrlərdə yaşayıb-yaratmış mütəfəkkirlərinin siyasi-hüquqi görüşlərinin mütərəqqi cəhətləri, onları siyasi idealı, sosial hadisəilərə münasibəti və mövqeləri, eləcə də o dövrdə mövcud olmuş bəzi ictimai-siyasi hərəkatların ideologiyası ətraflı tədqiq edilmişdir.

Mövcud ədəbiyyatın və orta əsr mütəfəkkirlərinin əsərlərinin dərindən mütaliəsi və təhlili əsasında siyasi və hüquqi fikrimizdə formalaşmış qanun və qanunçuluqla bağlı ideyaların sonrakı yüzilliklərin analoji ideyalarına müsbət təsiri, habelə onların formalaşmasında tarixi əhəmiyyəti müəyyən edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1) XII – XVI əsrlərdə Azərbaycanın siyasi-hüquqi fikrində qanun və qanunçuluğa dair ideyaların maarifçi əsaslarının aydınlaşdırılması qanunauyğun hesab olunmuş, habelə bu qanunauyğunluq müəyyənləşdirilmişdir;
2) qanun və qanunçuluğa dair ideyaların təşəkkülü və inkişafında əxlaqi dəyərlərin müsbət tarixi rolu əsaslandırılmışdır;
3) nəzərdən keçirilən ideyaların formalaşmasına mənəvi amillərin və müxtəlif sosial hadisələrin qarşılıqlı təsirinin ayrı-ayrı aspektləri təhlil edilmişdir;
4) qanun və qanunçuluqla bağlı müxtəlif yüzilliklərdə meydana gəlmiş görüşlərin bir-birinə qarşılıqlı təsiri tədqiq edilmişdir;
5) şərh edilən ideyaların ayrı-ayrı yüzilliklərdə meydana gəlmiş siyasi-hüquqi fikirlərdə təzahür edən dəyişiklərin tarixi zərurətdən irəli gəlməsi təsdiq edilmişdir;
6) qanun və qanunçuluğa dair ideyaların cəmiyyətin mənəvi həyatı ilə qarşılıqlı bağlılığının müxtəlif aspektləri müəyyən edilmişdir;
7) təhlil edilən ideyaların o dövrlərin ictimai-iqtisadi və siyasi həyatında baş vermiş proseslər, mövcud ideologiya ilə qarşılıqlı əlaqəsi tədqiq edilmişdir;

8) qanun və qanunçuluğa dair görüşlərin XII – XVI əsrlərdə cəmiyyətdə mövcud olmuş ideologiya əsasında formalaşması, habelə müxtəlif ideoloji proseslərin əhatəsində təzahür etməsi müəyyən edilmişdir;
9) qanun və qanunçuluğa dair ideyaların müsbət cəhətlərinin sonrakı dövrlərdə formalaşan analoji ideyaların inkişafına güclü təsirinin xüsusiyyətləri əsaslandırılmışdır;
10) tədqiq edilən problemlərin həllinə sistemli yanaşma nöqteyi-nəzərindən qanun və qanunçuluğa dair ideyaların öyrənilməsinin, onlardan qanunvericilik normalarının hazırlanmasında istifadə olunmasının predmet-məzmun təsnifatı məqsədəuyğun hesab olunmuşdur;
11) Azərbaycanın orta əsr mütəfəkkirlərinin siyasi-hüquqi görüşlərində qanun və qanunçuluqla bağlı konkret mülahizələrinin məzmunu aydınlaşdırılaraq, onların siyasi mövqeləri və idealları müəyyən edilmiş, habelə siyasi-hüquqi dünyagörüşlərinin mütərəqqiliyi əsaslandırılmışdır;
12) qanun və qanunçuluğa dair ideyaların maarifçi kökləri, etik əsasları, belə ideyaların məzmununa islamın təsiri, habelə qanun və qanunçuluqla bağlı görüşlərin təşəkkül tapmasında və inkişafında ictimai-siyasi hərəkatların tarixi rolu müəyyən edilmişdir;
13) Azərbaycan mütəfəkkirlərinin siyasi-hüquqi görüşlərinin, o cümlədən qanun və qanunçuluqla bağlı fikirlərinin humanizmi, həmin fikirlərdəki utopik ideyalar, habelə ideal cəmiyyətə və quruluşa dair baxışlar əsaslı şəkildə təhlil edilmişdir;
14) siyasi-hüquqi görüşlərin, eləcə də qanun və qanunçuluğa dair ideyaların demokratik cəhətləri, orta əsr ədalət mühakiməsinin bəzi spesifik xüsusiyyətləri əsaslandırılmışdır;
15) qanun və qanunçuluqla bağlı ideyaların mütərəqqiliyi orta əsr feodal cəmiyyətinin qüsur və nöqsanlarının tənqidi ilə vəhdətdə tədqiq edilmişdir;
16) orta əsr feodal dövlətində mövcud olan üsul-idarəsinin qanunazidd təzahürlərinin tənqidinin Azərbaycan mütəfəkkirlərinin siyasi-hüquqi görüşlərində mühüm yer tutduğu sübut edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat əsərinin nəzəri və təcrübi əhəmiyyəti ondan ibarətdir ki, müəllif Azərbaycanın XII-XVI əsrlər siyasi və hüquqi fikrində qanun və qanunçuluqla bağlı ideyaları aşkar etmiş, onların bir çoxunun müasir dövrdə də prinsipial müddəalardan ibarət olduğunu elmi cəhətdən əsaslandırmışdır.

Tədqiqat əsəri siyasi və hüquqi təlimlərin, o cümlədən Azərbaycanın siyasi və hüquqi təlimlər tarixinin zənginləşməsi baxımından, həmin təlimlərə elmi cəhətdən əhəmiyyətli və yeni müddəalar gətirmiş, Azərbaycan xalqının siyasi və hüquqi fikrində qanun və qanunçuluqla bağlı ideyaların mühüm tərkib hissəsi olduğunu əsaslandırmışdır. Tədqiqat əsəri Azərbaycanın siyasi və hüquqi təlimlər tarixi fənninin tədrisi baxımından da faydalı bir hadisədir.

Tədqiqat əsərinin təcrübi əhəmiyyəti ondan ibarətdir ki, onun müddəalarından ölkənin hüquqyaratma fəaliyyətində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Tədqiqatın nəticələri əsasında iki monoqrafiya, üç kitabça və iyirmidən artıq məqalə dərc etdirilmişdir. Bundan başqa, tədqiqatın nəticələri siyasi-hüquqi fikirlə əlaqədar biliklərin tədris və hüquqi təbliğat işlərində geniş tətbiqinə imkan yaratmış, xüsusi tədqiqat metodları işlənib hazırlanmışdır.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Tədqiqatın AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunda, elmi konfraslarda, simpozium və seminarlarda aprobasiyadan keçirilmişdir.

Tədqiqat əsərinin nəticələrindən «Azərbaycanın siyasi və hüquqi təlimlər tarixi», eləcə də «Siyasi və hüquqi təlimlər tarixi» kurslarının tədrisində istifadə olunur.

**Dissertasiyanın strukturu.** Tədqiqat əsəri girişdən, 12 yarımfəsli əhatə edən 5 fəsildən, nəticədən və istifadə olunmuş ədəbiyyatların siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Tədqiqat əsərinin **giriş** hissəsində mövzunun aktuallığı, tədqiqatın məqsədi və vəzifələri, obyekti və predmeti, metodika və metologiyası, elmi yeniliyi, müdafiəyə çıxarılan əsas məsələlər, tədqiqat əsərinin nəzəri və təcrübi əhəmiyyəti, işin işlənmə səviyyəsi, elmi nəticələrin və aprobasiyası əsaslandırılmışdır.

Tədqiqat əsərinin **birinci fəsli «Azərbaycanda erkən orta əsrlərdə qanun və qanunçuluğa dair ideyaların ümumi səciyyəsi»** adlanır. Bu fəsil dörd yarımfəsli əhatə edir. **«Qanun və qanunçuluğa dair ideyaların maarifçi kökləri»** adlanan birinci yarımfəsildə Azərbaycanın XII əsrəqədərki dövrdə qanun və qanunçuluqla bağlı formalaşmış ideyaların təhlili verilir. Azərbaycanın siyasi və hüquqi fikir tarixinin müxtəlif inkişaf dövrlərində formalaşmış və inkişaf etmiş siyasi-hüquqi ideyalar bir-birinə ideoloji tellərlə bağlı olmuş, həmin ideyalarda ifadə edilmiş görüşlər hər bir konkret tarixi dövrdə cəmiyyətin sosial-iqtisadi

və siyasi şəraitinə, həmçinin hüquqi hadisə və proseslərə uyğun olaraq təşəkkül tapmışdır.

Siyasi-hüquqi dünyagörüşün təşəkkülünün dini-mifoloji mərhələsində hüquq (qayda) və xüsusilə də qanun sosial normaların əlahiddə sferası kimi dərk edilməmişdi. Qədim dövrün qanunlarının məzmunu dini-mifoloji, əxlaqi və sosial-siyasi elementlərdən ibarət idi. Bütövlükdə qanunvericiliyin ilkin mənbəyi ilahi qüvvələrlə əlaqələndirilirdi. Yəni qanunların bilavasitə yaradıcıları allahlar və ya onların təyin etdikləri hökmdarlar (dövlətlərin, qanunların və qanunvericiliklərin əfsanəvi yaradıcıları, yaxud qəhrəmanları) hesab olunurdu.

Qədim teoqonik və kosmoqonik əsatirlərin mühüm aspekti (o cümlədən Avestada Xeyir və Şər allahlarının simasında) dünya üzərində hökmranlıq etmək uğrunda mübarizə olmuşdur. Bu mübarizə əbədi səciyyə daşıyır. Avestada xeyri təmsil edən hörmüz (Ahura Məzda) etik planda xeyirxahlığın, ədalətin; şər qüvvələrin başında duran Əhriman (Anhra Manyu) isə bütün bədxahlıqların və ədalətsizliklərin rəmzidir.

Zərdüşt etikasının mərkəzi xəttini təşkil edən üç əsas prinsiplərdən biri olan və Avestada tez-tez təsadüf olunan «xeyirxah əməl» prinsipi zərdüştilik dövrünün hüququ dərketməsinin xarakteristikası baxımından son dərəcə səciyyəvidir. Təsadüfi deyildir ki, müqəddəs qanuna, ədalətli qaydaya tabe olmaq zərdüştiliyin ən yüksək əxlaqi prinsipidir. Avesta haqq yolunun yolçularına – möminlərə aşağıdakıları tövsiyə edirdi: «Qanuni hərəkətləri muqəddəs qaydaya uyğun və yaxşı icra etmək, qanunsuz və pis əməllərdən çəkinmək üçün ayaqlarınızı, əllərinizi və ağlınızı hazır saxlayın». Qanunlara uyğun hərəkət etmək, onları olduğu kimi icra və onlara əməl etmək zərdüştilik dövrü siyasi-hüquqi fikrinin əvəzsiz nailiyyəti, gələcəkdə formalaşan hüquqi ideyaların rüşeymləri idi.

Zərdüştilik dövrünün təsəvvürlərində qanun (hüquq, qayda) və ədalət bir-birilə sıx əlaqədə ifadə edilir və bir növ eyniləşdirilirdi. Zərdüşt etikasına görə, ədalət adətlərdən, davranış normalarından doğan qanunun əsas prinsipidir. Qanun isə maddiləşmiş və həyat normasına çevrilmiş ədalətdir. Belə bir nəticə əldə edilir ki, cəmiyyətdə ədalətli qanunlar yaradılmasına və həmin qanunlara hamının tabe olmasına nail olmaq zərdüştiliyin ali məqsədlərindən biri olmuşdur. Eyni zamanda da ədalətli qanunların meydana gəlməsi və cəmiyyət üzvləri arasındakı münasibətlərdə onlara əməl edilməsi zərdüştilik dövründə ictimai həyatda vahid qayda ilə idarəetməyə doğru atılan ilk addımlardan idi.

Azadlığın və sərbəstliyin zəhmət adamlarına verilməsi Zərdüşt təliminin səciyyəvi cəhətidir. Belə ki, Avestada faydalı iş həyati qanun kimi çıxış edir. Bunu «Yasna»dakı çağırışlardan birində görmək mümkündür: «Mən bu torpaqda mal-qara saxlayan hər bir sahibkara sərbəst hərəkət və azad həyat təmin edirəm».

Zərdüştilik təlimində təbliğ edilən maarifçilik, şübhəsiz ki, müdriklik və ədalətlə idarət etmək tələblərindən irəli gəlmişdir. Bu, cəmiyyətin Məzda qanunları ilə idarə edilməsi istəyindən doğmuş və eləcə də sosial həyatın özünün ədalətli və müdrik qanunlar üzərində qurulması zərurətini təzahür etdirmişdir. Zərdüşt təlimində ifadə olunan qanunların təbiətinə xas olan maarifçilik insanların fəaliyyətinin bir növ davranış normalarının ölçü, meyar göstəricisi kimi çıxış etmişdir. Məzda qanunları bütün həyati məsələlərin həllinə ədalətlilik və müdriklik mövqelərindən yanaşır, bütövlükdə cəmiyyətdəki ictimai münasibətləri tənzimləyən adət və ənənələrin, prinsiplərin məcmusu qismində çıxış edirdi. Həmin norma və prinsiplərin məzmununa yüksək və dərin əxlaqilik, humanizm və xeyirxahlıq, sosial ədalət və azad inkişaf keyfiyyəti xas olmuşdur.

Zərdüştilik dövründə cəmiyyətdə fəaliyyət göstərən qanun (hüquq, ideya) öz funksiyasını yalnız ictimai münasibətləri tənzim etməklə bitmiş hesab etməmişdir. O, insan həyatının bir çox cəhətlərini əhatə etmiş və eyni zamanda da digər sosial normaların (məsələn, dini normaların, mərasim normalarının və digər sosial normaların) mahiyyətindən fərqlənmişdir. Deməli, zərdüştilik dövrü qanunları sosial tənzimetmənin nisbi-müstəqil formalarından biri qismində çıxış etmişdir.

Məhz bütün bunların nəticəsi olaraq zərdüştilik dövründə mövcud olmuş qanunlar və ədalətli qaydalar zaman keçdikcə özünün təsir dairəsini tədricən daha da genişləndirmiş, sonrakı yüzilliklərdə formalaşan siyasi-hüquqi ideyaların püxtələşməsində müsbət rol oynamışdır. Zərdüştilik təlimində ali Allahın iradəsinin ən yüksək aktı kimi təsvir edilən qanun (həmçinin müqəddəs qanuna əməl etmək göstərişi və onu olduğu kimi icra etmək tələbi) cəmiyyətin inkişafının yetkin dövrlərində dünyəvi məzmun kəsb etməyə başlamış və dövlət hakimiyyətinin hüquqi aktı kimi (hüquqi anlayış kimi) formalaşmışdır.

**Birinci fəslin ikinci yarımfəsli «Qanun və qanunçuluğa dair ideyaların etik əsasları»** adlanır. Dövlətə, hüquqa, siyasətə və qanuna dair fikirlər insan düşüncəsini bu düşüncənin formalaşdığı ən erkən dövrlərdən müşayiət etməyə başlamışdır. Lakin insanların siyasi-hüquqi və etik düşüncələri elmin ən bəsit şəkildə olduğu şəraitdə hələ dini-mifoloji çərçivədən kənara çıxa bilmədiyinə görə, cəmiyyətin ən erkən

tarixi inkişaf dövründə (o cümlədən Yunanıstanda Homer, Azərbaycanda Zərdüştilik dövründə) həmin fikir və düşüncələr sxolastik səciyyə daşımışdır. Təbiətin yaratdıqları ilahiləşdirilsə də, bütün varlıqların fövqündə insan dururdu. Lakin cəmiyyətdə hökmranlıq edən mifoloji təsəvvürlər insan iradəsinin gücünü, onun hər şeyə qadir olduğunu və s. həqiqətləri hələ bütünlüklə dərk etmək iqtidarında olmamışdır.

Antik dövrün siyasi-hüquqi fikrində formalaşmış qanun və qanunçuluğun etik əsaslarına dair analoji ideyalara Azərbaycanın da siyasi və hüquqi fikir tarixində təsadüf olunur. Azərbaycanın qədim dövrlərində insana, onun şərəf və ləyaqətinə, ümumiyyətlə əxlaqi sərvətlərə hörmət, ehtiramla və ehtramla yanaşma təbliğ edilmişdir. Müsbət insani keyfiyyətlərin təbliği öz ifadəsini şifahi xalq yaradıcılığında, folklorda, Avestada, sonrakı dövrlərdə ictimai-siyasi hərəkatların qabaqcıl nümayəndələrinin fikirlərində tapmışdır.

Azərbaycan xalqının folklorunda əxlaqi dəyərləri və xalqın ictimai-siyasi səylərini əks etdirən çoxlu nağıl və dastanlar vardır. Onlarda zülmə və zalımlığa, ədalətsizliyə və özbaşınalıqlara qarşı güclü və barışmaz etiraz motivləri vardır. Azərbaycan folklorunun ictimai-siyasi motivli hissələrinin əsas məzmununu azad və firavan həyat, zülmdən qurtulmuş cəmiyyət, hökmdarları müdrikliyə və ədalətli olmağa çağıran nəsihətlər və s. təşkil edir. Azərbaycan xalqının yaratdığı atalar sözləri bərabərlik, insan azadlığı, ədalətli qanun ideyalarını tərənnüm edir. «Öz vicdanının qulu, öz iradənin hökmdarı ol»; «İnsana insanlıq gərəkdir»; «İnsan qədrini insan bilər» və s. bu kimi atalar sözləri dövrümüzədək gəlib çatmışdır.

Zərdüştiliyin etik təlimi bir növ özünütəkmilləşdirmə istiqamətini tutur və əcdadların ibarətamiz həyat təcrübəsindən bəhrələnməyi tövsiyə edirdi. Məhz buna görə də Avestada ilk insan İma ölkəni ağıl, ədalət, Məzda qanunları əsasında idarə edən birinci hökmdar, müdrik hökmdar kimi təqid olunur. Avestada təbliğ edilən ideal cəmiyyət ədalətli qanunlarla idarə olunur. O, müdrik, bilikli və ədalətli monarxın idarə etdiyi cəmiyyətdir.

Azərbaycanda Zərdüştilik dövründə mövcud olmuş qanunların və ayrı-ayrı hüquq institutlarının geniş mənzərəsi Avestanın «Vendidad» («Divlər əleyhinə qanunlar») hissəsində verilmişdir. İyirmi iki fəsildən ibarət olan bu hissə Avestanın ən mühüm tərkib hissələrindən biri olub, məzdəizm təlimi müddəalarından və hüququn müxtəlif sahələrinə aid olan qanunvericilik normaları toplusundan ibarətdir. Bu qanunvericilik normaları toplusunun sosial-etik leytmotivi müxtəlif göstəriş, tələb və

vəzifələrin icrasından ibarətdir. Vendidadda aşağıdakı hüquq institutlarından bəhs olunan normalar ehtiva olunur:
1) dini ayinlərə və onların icrasına (mərasimlərə) aid olan normalar;
2) mülki-hüquqi əqdlərin bağlanmasından və müqavilə şərtlərinin pozulmasından (onların hüquqi nəticələrindən) bəhs edən normalar;
3) cinayətkar əməllərdən və onlara görə verilən cəzalardan bəhs edən normalar;
4) ailə-nikah məsələlərindən bəhs edən, ər-arvad münasibətlərini tənzimləyən normalar;
5) vərəsəlik hüququna aid olan normalar;
6) ədalət mühakiməsinin həyata keçirilməsi qaydalarından bəhs edən normalar (prosessual normalar).

Azərbaycanın siyasi-hüquqi fikrində qanun və qanunçuluq məsələləri ölkənin Sasanilər imperiyasının tərkibinə daxil olduğu III-VII əsrlərdə də müəyyən təkamül proseslərindən keçmişdir. Bu dövrdə Sasanilərin bir çox hüquq topluları tərtib edilmişdir. Sasanilərin hüquqi abidələrindən yalnız bir kitab – «Min məhkəmə qərarları kitabı» qorunub saxlanmışdır. Toplu hüquqi kazusların məcmusundan ibarət olub, hüququn və mühakimə icraatının müxtəlif sahələri ilə bağlı məsələləri əhatə edirdi.

Sasanilər dövrünün çox qiymətli abidələrindən biri olan «Tanserin məktubu» Azərbaycanın siyasi və hüquqi fikir tarixinin öyrənilməsi, eləcə də tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edir. Abidədə Sasanilər dövrünün bir sıra sosial-iqtisadi məsələləri də təhlil edilmişdir. Onun yazılmasından əsas məqsəd məzdəkilər hərəkatı nəticəsində imtiyazlı təbəqələrin itirilmiş hüquqlarını yenidən bərpa etməkdən ibarət olmuşdur. «Tanserin məktubu»nda dövlət hakimiyyətinin xarakteri və idarəçilik forması məsələlərinə də toxunulmuşdur. Məktubda göstərildiyinə görə, qeyri-məhdud monarxiya idarəçilik forması mövcud olmuş, hakimiyyət irsi xarakter daşımışdır.

Sasanilər dövrünün ictimai-siyasi vəziyyəti haqqında məlumat verən mənbələrdən biri də «Minoke xor» kitabıdır. Müəllifi naməlum olan bu kitabda tövsiyəedici bir fikir öz əksini tapmışdır. «Sənətkarlar bacarmadıqları işə girişməməlidirlər. Onlar öz peşələrinə uyğun olan işləri layiqincə yerinə yetirib əvəzində isə onun muzdunu almalıdırlar».

Adları sadalanan abidələrin siyasi-hüquqi məzmunu Sasanilər dövrü Azərbaycanının hökmran ideologiyasının mənafeləri və dövlət maraqları baxımından tərtib edilmişdir. Bununla yanaşı, onlar ictimai-siyasi və hüquqi fikir tariximizin bir çox etik məqamlarını da özündə

parlaq şəkildə ehtiva etmişdir. Hüquqi məzmunlu həmin adidələrin əxlaqi əsasına ilk növbədə zərdüştiliyin etik ideyaları təsir göstərmişdir.

Zərdüştiliyin etik təliminə uyğun olaraq qanun nəinki ədalətli olmalı, o, həm də əxlaqi dəyərlərə söykənməlidir. Neçə əsrlər bundan əvvəl irəli sürülmüş bu ideya bu gün də aktualdır. Muasir qanunvericilikdə öz əxlaqi dəyərləri ilə seçilməyən normaya təsadüf etmək çətindir. Qədim dövrlərdə mövcud olmuş adətlərdə, adət hüququndakı tələb və göstərişlər qadağanedici təbiətə malik olmaları ilə yanaşı, humanist əlamətləri ilə də diqqəti cəlb edirlər. Məhz bunun sayəsində törədilmiş təhlükəli əmələ görə cəzalandırma ilə yanaşı, utandırmadan, həmçinin məzəmmətin digər formalarından istifadə edilmişdir.

**Birinci fəslin «Qanun və qanunçuluğa dair ideyaların formalaşmasında və inkişafında ictimai-siyasi hərəkatların rolu»** adlanan üçüncü yarımfəslində ideoloji mübarizənin səciyyəvi xüsusiyyətlərindən bəhs olunur. İdeoloji mübarizə əsasən müxtəlif dini cərəyanların öz aralarında, yaxud hökmran ideologiyaya qarşı bidətçilik (yeretik hərəkat) hərəkatı formasında təzahür edirdi. Bidətçilik cərəyanları təkcə zəhmətkeşlərin hakim feodallar sinfinə qarşı mübarizəsinin təzahürü deyil, həm də yadelli işğalçılar əleyhinə sosial etirazların bir forması idi.

Azərbaycanda ilk bidətçilik cərəyanlarından biri III əsrdə meydana gəlmiş **zərvanilik** dini cərəyanı olmuşdur. Zərvanilər Sasanilər dövründəki məzdəizm dini-fəlsəfi təlimi ilə rəqabətdə olmuşdur. O, eyni zamanda əqidə daşıyıcılarının birləşdiyi cərəyan idi. Zərvanlar bir sıra hallarda sosial şüarlarla çıxış etdiklərinə görə, onları ictimai-siyasi hərəkatların nümayəndələri kimi də səciyyələndirmək olar. İdeyaları əsasən dini-fəlsəfi xarakter daşıyan bu cərəyan sxolastik fikirlərin təsiri altında formalaşmışdı.

Zərvanın tərəfdarları Allahın mövcud olduğunu inkar edir və özlərini dini ayinlərə riayət etməkdən azad edirdilər. Onlar göstərirdilər ki, bu dünya onda baş verən hadisələrlə birlikdə onun cismani fəndləri, ziddiyyətli şeyləri, qarışıq elementləri ilə sonsuz zamanın müxtəlif təzahürlərinin meydanıdır. Onlar cənnət və cəhənnəmə, Allah cəzasına və mükafatına inanmır, ruhun ölməzliyini rədd edir və materiyadan savayı heç nəyi real hesab etmirlər.

Azərbaycanda Sasanilərin hökmranlığı dövründə bidətçilik cərəyanı kimi inkişaf etmiş kütləvi ictimai-siyasi hərəkata çevrilən cərəyanlardan biri **manilikdir.** Onun banisi və rəhbəri Maninin təlimi dərin sinkretik səciyyə daşımış, ona bütün dinlərin vahid dinlə əvəz

edilməsi ənənəsi xas olmuşdur. Bu təlim zərdüştiliyin, zərvaniliyin, xristianlığın və buddizmin ideyalarını birləşdirirdi.

Maninin təlminə görə, dünyada xeyirlə şər, işıqla qaranlıq arasında əbədi mübarizə gedir. Dünya şeytan əməlləri ilə doludur. İnsan ilk növbədə şər ünsürlərdən azad olmalıdır. Hakimiyyətə can atmaq, hökmranlıq iddiasında olmaq insana yad olmalıdır. Feodal üsul-idarəsinin qəddarlığına və zalımlığına etiraz əlaməti olaraq həmfikirlərini və zəhmətkeş kütlələri şər qüvvələrdən uzaqlaşmağa çağıran Mani xalqı mövcud siyasi quruluş əleyhinə fəal mübarizəyə səsləyirdi. Onun təlimi cəmiyyətdə fəaliyyət göstərən qanunları qəddar və yararsız hesab edirdi. Mani feodal qanunlarının yalnız hakim təbəqənin mənafelərini və mülkiyyətini qoruduğunu göstərirdi.

Maniliyin sosial-siyasi ideologiyasına görə, cəmiyyətdə mövcud olan qanunlar əmlak bərabərsizliyini, istismarı nəinki aradan qaldırmır, əksinə, bunu daha da dərinləşdirir, qanunların kəsərindən ancaq zəhmətkeş kütlə əleyhinə istifadə olunur.

Sasani zülmünə və yerli feodallara qarşı baş vermiş **məzdəkilik** hərəkatı erkən orta əsrlərin ən mühüm ictimai-siyasi və tarixi hadisələrindən biridir. Maniliyin təsiri altında yaranmış bu hərəkat özünəməxsus spesifik xüsusiyyətlərə və fəaliyyət proqramına malik olmuşdur. 481-529-cu illəri əhatə edən məzdəkilik hərəkatına Məzdək Bəmdad oğlu başçılıq edirdi.

Məzdək təliminin əsas müddəası ədalətli cəmiyyət yaratmaq, insanlar arasında əmlak bərabərliyinin bərqərar olmasına nail olmaqdan ibarət idi. Mahiyyətinə görə, o zamankı quruluş şəraitində reallaşması qeyri-mümkün olan bu müddəa erkən orta əsrlərdə səslənən sosial utopiyanın ilkin təsəvvürlərindən birini xatırladır. Məsələn, Şəhristaninin yazdığına görə, Məzdək öz çıxışlarından birində deyirdi: «Allah insanı bərabərhüquqlu yaratmışdır. Lakin bir qrup adamlar bütün sərvətləri öz əllərində toplayıb varlanmışdır. Məzdək deyirdi ki, bu mal-dövləti onların əlindən alıb bütün insanlar arasında bərabər surətdə bölmək lazımdır». Məzdək ədalətli cəmiyyətin qurulmasını, insanların əmlak bərabərliyinə nail olmasının başlıca yolunu mübarizədə görürdü.

Məzdəkliyin əsas tələblərinə aşağıdakılar aid idi: 1)hamının sosial və əmlak bərabərliyi; 2) qanun qarşısında hamının eyni dərəcədə bərabər olması; 3) məişət bərabərliyi; 4) dini mərasimlərin ayinlərinin sadələşdirilməsi.

Ərəb Xilafətinə qarşı 60 ildən artıq mübarizə aparmış xürrəmilik Azərbaycan xalqının azadlıq mübarizəsi tarixinin parlaq səhifələrindən biridir. Xürrəmilik həm də bidətçi hərəkat idi. Xürrəmilər cəmiyyətdəki

bütün ədalətsizliklərin və qanunsuzluqların kökünü sosial bərabərsizlikdə görürdülər. Onların şüarı torpağı və digər istehsal vaistələrini xalqın ixtiyarına verməkdən, kəndliləri və sənətkarları feodal asılılığından azad etməkdən ibarət idi. Xürrəmilər məzdəkilərin mübarizə yolunu davam etdirərək ictimai bərabərlik ideyasını irəli sürürdülər. Xürrəmilərin rəhbəri Babək isə azadlıq carçısı kimi şöhrət qazanmışdı. İnsanların şəxsi azadlığı, sosial bərabərlik və hüquq bərabərliyi, maddi nemətlərin bərabər bölüşdürülməsi, istiqlaliyyət uğrunda daimi mübarizə, insan haqlarının qorunması, vicdan azadlığı, etiqad sərbəstliyi, azadfikirlilik və s. xürrəmiliyin ictimai-siyasi ideologiyasının əsas müddəalarıdır.

Orta əsrlərin görkəmli bidətçilik hərəkatlarından biri də «İxvan əs-Səfa» («Saflıq qardaşları») gizli cəmiyyəti – ittifaqı olmuşdur. Bu cəmiyyət ortodoksol islamla bidətçilərin açıq mübarizəsi nəticəsində X əsrin sonlarında yaranmışdır. İttifaqın siyasi-hüquqi təlimində dünyəvi hakimiyyət inkar olunmasa da, cəmiyyətin idarəçiliyinə aid mülahizələrində hakimiyyətin ilahi mənşəyi haqqında məsələyə də toxunulur. İttifaqın təlimində idarəçiliyin aşağıdakı növləri fərqləndirilirdi: 1) peyğəmbər idarəçiliyi; 2) şah idarəçiliyi; 3) insan birliklərinin idarəçiliyi; 4) xüsusi idarəçilik; 5) şəxsi idarəçilik. Həmin təlimdə ədalətli qanunları cəmiyyətin qüsursuz idarə edilməsində mühüm amillərdən biri hesab edirdi. Həmin təlimə uyğun olaraq insan cəmiyyətinin düzgün inkişafı, maddi nemətlərin bolluğu və insanların xoşbəxtliyi cəmiyyətdə tətbiq edilən qanunların hüquqi təbiətindən asılıdır. Cəmiyyətin xoşbəxtliyindən ötrü qüvvədə olan qanunlara əməl edilməsi də vacib şərtlərdən biridir.

Şimali Azərbaycanda ortodoksal xristianlıq əleyhinə yönələn mühüm bidətçilik hərəkatlarından biri **pavlikanlıq** idi. Pavlikanlıq həm də Bizansda böyük yeretik bir hərəkat kimi meydana gəlmişdi. Pavlikanların dünyagörüşünün əsasında iki başlanğıc – Xeyir və Şərin əbədi mübarizəsini əks etdirən düalizm dururdu. Pavlikanlıq təlimi Xeyiri mənəvi aləmin və göylərin, Şəri isə maddi aləmin, dünyəvi həyatın mənbəyi hesab edirdi. Bu iki başlanğıcın birliyi insan idi. Bu, kamilləşmə yolu ilə Xeyir başlanğıcın qələbəsinə nail olmağa qadir olan insan idi.

Pavlikanlar məhz insanların sosial və əmlak bərabərliyi mövqeyindən yerli feodallar və Ərəb Xilafətinin feodalları ilə mübarizə aparırdılar. Onlar özlərinin müstəqil icmalarını yaradaraq, nə feodallara, nə də kilsəyə tabe olmurdular. Pavlikanlar sosial bərabərsizliyin və iri torpaq sahibliyinin ləğvi iddiasını irəli sürürdülər. Bu hərəkatın ictimai-siyasi təlimi öz ideoloji mənbəyini manilikdən və

məzdəkilikdən götürmüşdü. Lakin məzdəkilərdən fərqli olaraq pavlikanlar xeyrin qələbəsinə inanırdılar.

Beləliklə, Azərbaycanda erkən orta əsrlərdə fəaliyyət göstərmiş ictimai-siyasi hərəkatların siyasi-hüquqi ideyaları öz dövrünün ən ciddi tələblərindən biri kimi çıxış etmişdir. Həmin tələblər cəmiyyətin idarə olunmasında sosial bərabərliyi, belə bərabərlik əsasında tətbiq edilən qanunların ədalətliliyini mühüm amil hesab etmişlər.

**Birinci fəslin dördüncü yarımfəsli «Qanun və qanunçuluğa dair ideyalara islamın təsiri»** adlanır. Müxtəlif xalqların dövlətçilik tarixi belə bir danılmaz faktın da şahididir ki, barışmaz ziddiyyətlərin mövcud olduğu cəmiyyətlərdə (ölkələrdə) dini ideologiya həmişə aparıcı mövqelərdən birini tutmuşdur. Dinin belə hökmran mövqeyinə bəzi müasir dövlətlərdə (məsələn, İranda, Əfqanıstanda, Səudiyyə Ərəbistanında) indi də təsadüf olunur.

IX əsrdən başlayaraq Azərbaycanda hakim dini ideologiya kimi formalaşmağa başlamış islam qabaqcıl fikirli mütəfəkkirlərin dünyagörüşünə təsir göstərməklə yanaşı, bütövlükdə hüquq sisteminin də şəriət normaları əsasında formalaşmasında böyük rol oynamışdır. Azərbaycanda islamın siyasi ideologiyasının qanun və qanunçuluqla bağlı fikirlərə təsiri, hər şeydən əvvəl, şəriətin özünün sabitliyindən və möhkəmliyindən irəli gəlmişdir. Şəriətin sabitliyindən və möhkəmliyindən danışarkən onun adət hüququna – islam dinini qəbul etmiş xalqların, o cümlədən Azərbaycan xalqının adət hüququna münasibətini qeyd etməmək olmaz. Şəriət və onun bağlı olan müsəlman hüququ Ərəbistan yarımadası əhalisinin adət hüquq normalarından irəli gələn, zaman keçdikcə maddiləşərək yazılı qanunlar formasında təşəkkül tapmışdır. Bu da öz sistemləşdirilmiş ifadəsini müsəlman hüququnun əsas mənbələri olan Quranda və Sünnədə tapmışdır. Xilafətin işğalçılıq siyasəti gedişində şəriət normaları məğlub edilmiş digər xalqlar kimi Azərbaycan xalqının da adət hüquq normalarını özündə təcəssüm etdirmişdir.

İctimai-siyasi hadisələrin kəskinləşdiyi və ideoloji mühitin mürəkkəbləşdiyi bir şəraitdə yeni fəlsəfi, ictimai-siyasi fikir cərəyanlarından biri – **sufilik** (təsəvvüf) meydana gəlmiş (VIII əsr) və bütün müsəlman ölkələrində sürətlə yayılmağa başlamışdır. Mürəkkəb və çoxşaxəli fikir cərəyanı olan sufilik orta əsrlər boyu ayrı-ayrı vaxtlarda müxtəlif ideya istiqaməti almışdır. İslam zəminində meydana çıxmış sufiliyə şamanlıq, zərdüştilik, buddizm, xristianlıq, neoplatonizm və s. dini-fəlsəfi təlimlərin təsiri olmuşdur. Sufilikdə Çin və Hind fəlsəfəsinin də elementlərinə təsadüf etmək olar. IX-X əsrlərdə sufilik başlıca müxalifətçi cərəyan hesab edilmişdir.

İslamın ideoloji cərəyanları içərisində sifatiliyi, qədəriliyi, cəbəriliyi, mötəzililiyi və əşəriliyi qeyd etmək olar. Müxtəlif firqələrə bölünən sifatilər bilavasitə Qurana və hədislərə əsaslanaraq Allahın bilik, qüdrət, dirilik, iradə, eşitmə, görmə, danışma və bir sıra başqa əzəli atributlara malik olduğunu söyləyirdilər. Sifatilərin bəziləri, hətta ifrata vararaq Allahı insana bənzədir, onun maddiləşdirirdilər.

Allahın atributlarına, o cümlədən onun kəlamına, başqa sözlə, Qurana münasibətdə cəbərilər və qədərilər sifatilərə qarşı zidd mövqedə dururdular. Onların fikrincə, Allahın heç bir qədim atributu yoxdur, eləcə də Quran sonradan xəlq edilmişdir. Lakin iradə azadlığı məsələsində cəbərilərlə qədərilər arasında fikir ayrılığı mövcud idi. Cəbərilərin ideyasına görə, insanın əlindən müstəqil surətdə heç bir iş gəlmir, o, heç nəyi bacarmır, yerinə yetirdiyi işləri icbari şəkildə həyata keçirir. Cəbərilər iddia edirdilər ki, Allah öz bəndələrinin həm xeyir, həm şər, həm də yaxşı və pis əməllərinin xaliqidir.

Təşəkkül tapmaqda olan islam sxolastikası VIII əsrdə müxalifətçi və ortodoksal qanadlara ayrılırdı. Həmin qanadlardan biri mötəzililik, digər isə əşərilik idi. Hələ VIII əsrdə meydana gəldiyi vaxtdan Azərbaycanda da geniş yayılmış mötəzililik IX əsrin birinci yarısında rəsmi dairələr tərəfindən də qəbul edilmişdi. Mötəzililiyin özünün daxilində ayrı-ayrı məsələlərə münasibətdə fikir ayrılıqları mövcud idi. Ən böyük mübahisələr Xilafətə rəhbərlik ətrafında cərəyan edirdi. Mötəzililər belə rəhbərliyi «imamət» adlandırırdılar.

IX əsrin sonlarına doğru mötəzililik hakim dairələr tərəfindən bidətçilik cərəyanı hesab edilmiş və o, öz yerini tədricən ortodoksal islam sxolastikasına – əşəriliyə vermişdir.

Azərbaycanda qanun və qanunçuluğa dair ideyalara, ümumiyyətlə, hüquq sisteminə islamın siyasi-hüquqi ideologiyasının təsiri özünü, hər şeydən əvvəl, sosial-iqtisadi və inzibati idarəetmə sahəsində büruzə vermişdir. Xilafət işğal etdiyi digər ölkələr kimi, Azərbaycanı da əvvəllər öz qanunları (şəriət normaları), adət hüquq normaları vasitəsilə idarə etmişdir. Şübhəsiz ki, bu, ilk növbədə öz qayda-qanunlarını məğlub etdiyi ölkənin xalqına qəbul etdirməkdən və islamı yaymaqdan irəli gəlmişdir. Azərbaycan şah hakimiyyətinə və üsul-idarəsinə tabe olduğundan burada inzibati idarəetmə qaydaları, vergi sistemi, torpaq sahibliyi formaları, torpaqlardan istifadə qaydaları və s. ümumimperiya qaydaları əsasında tənzimlənir və idarə olunurdu. Lakin Xilafət siyasət və dövləti idarəetmə təcrübəsi cəhətdən inkişaf etmiş bir sıra dövlətlərdən, o cümlədən Bizans imperiyasından, eləcə də məğlub etdikləri İrandan geri qalırdı. Ona görə də Xilafət işğal etdiyi bütün ərazilərdə, o cümlədən Azərbaycanda ilk vaxtlar özünə

qədər mövcud olmuş idarəetmə qaydalarını saxlamaq və tətbiq etmək məcburiyyətində qalmışdır.

Tədqiqat əsərinin **ikinci fəsli «Azərbaycan İntibahı və onun siyasi-hüquqi fikirdə təzahürləri»** adlanır. Həmin fəsil üç yarımfəsildən ibarətdir. **Birinci yarımfəsil «Qanun və qanunçuluğa dair ideyaların humanist məzmunu»** adlanır. XI-XII əsrlər Azərbaycan elmi və mədəniyyəti tarixində böyük sıçrayışlar dövrüdür. Təsadüfi deyildir ki, həmin dövr Azərbaycanda İntibah dövrü kimi də səciyyələndirilir. XI-XII əsrlər Azərbaycan tarixində feodal ictimai münasibətlərinin və məhsuldar qüvvələrin sürətli inkişafı, feodal zülmünə qarşı çıxışlarla müşayiət olunan kəskin azadlıq hərəkatlarının yüksəlişi ilə səciyyəvidir.

Məhz XII əsrdə Yaxın və Orta Şərqin ölkələrində olduğu kimi, Azərbaycanda da feodal özbaşınalıqlarına qarşı mübarizə dini təsir dairəsində olan hərəkatlar vasitəsilə aparılırdı. Azərbaycan şəhərlərində dini pərdə altında fəaliyyət göstərən sənətkar təşkilatları böyük nüfuza malik idilər. Belə təşkilatlardan biri «Əxilər» («Qardaşlar») hərəkatı idi. «Əxilər» əsasən sənətkarların mənafelərini müdafiə edir, feodallar, tacirlər və sələmçilər əleyhinə mübarizə aparırdılar. Bu təşkilatın üzvləri əsasən fədakar və xeyirxah insanlardan ibarət idi. Onlar öz hesablarına topladıqları maliyyə vəsaitlərindən ehtiyacı olan məsləkdaşlarına yardım edir, xeyriyyəçiliklə məşğul olurdular. Əxilik də ismaililik və sufilik kimi demokratik istiqamətli hərəkat idi. Onu xürrəmilikdən sonra Azərbaycanın ən kütləvi ictimai-siyasi hərəkatı adlandırsaq səhv etmərik. Hərəkatın ideologiyasının əsasında humanizm, sosial ədalət, sosial bərabərlik və vətənpərvərlik hissəlri dururdu. «Əxilər» fikir, söz azadlığına, etiqad sərbəstliyinə müsbət və obyektiv yanaşırdılar.

Bu dövrdə şifahi və yazılı ədəbiyyat parallel şəkildə inkişaf edirdi. Şifahi xalq ədəbiyyatında mifologiya dini-sxolastika, yazılı ədəbiyyatda isə real həyat gerçəklikləri, dünyəvilik güclü idi. Tariximizin və ictimai-siyasi fikrimizin möhtəşəm abidəsi olan «Kitabi-Dədə Qorqud» qəhrəmanlıq eposu məhz şifahi yaradıcılığının məhsulu olub, sonradan ana dilimizdə qələmə alınmış böyük mənəvi sərvətlərindən biridir. Abidədəki hadisələrin təsviri belə bir ehtimala əsas verir ki, «İç» və «Dış» Oğuz adlanan cəmiyyət həmin dövrdə müstəqil dövlət qurumu olmuş, özündə dövlətçiliyin ən ibtidai elementlərini birləşdirməklə bəsit idarəetmə mexanizminə malik sosial-iqtisadi və siyasi təşkilat kimi mövcud olmuşdur. Oğuz elinin öz suverenliyi uğrunda mübarizəsi, cəmiyyətdə mövcud olan davranış qaydalarının və əxlaq normalarının möhkəmliyinin qorunub saxlanması sahəsində nümayiş etdirilən mütəşəkkil bütövlükdə oğuzların əxlaqi düşüncəsi, ictimai-siyasi təfəkkürü və dünyagörüşü haqqında şəhadət verir. Oğuz cəmiyyətinin

idarə edilməsində adət normalarına dəqiq əməl edilməsi, ölkə daxilində sabitliyin və əmin-amanlığın təmin olunması, qanunsuzluqların dərhal aradan qaldırılması, insan haqlarına hörmət göstərilməsi, yüksək əxlaqi-mənəvi dəyərlərə riayət edilməsi və s. qədim oğuzların nəinki öz elinə və xalqına, eləcə də bütün bəşəriyyətə miras qoyduğu nəib sərvətlərdir. İnsanlıq hələ bu sərvətlərdən çox faydalanacaqdır.

XII əsr ictimai-siyasi fikrimizin ən görkəmli nümayəndəsi Nizami Gəncəvi (1141-1209) öz dövrünün və gələcək dövrlərin humanizminin canlı heykəli olmuşdur. İnsan haqları və onların müdafiəsi, şəxsiyyət azadlığı, şəxsiyyətin iradə müstəqilliyi, bəşəriyyətin mədəni tərəqqisində dönüş nöqtələrindən olan İntibah dövrünün mənəvi mahiyyətinə çevrilmiş səlis humanizm nəzəriyyəsi Nizaminin ictimai-siyasi görüşlərində öz parlaq təcəssümünü tapmışdır.

Nizami humanizmi qanunsuzluğu, sosial zülmü və zorakılığı rədd edirdi. Siyasi idealına azadlığın, bərabərliyin və sosial ədalətin xas olduğu Nizaminin ideyasına görə, səadətə və xoşbəxtliyə səy insanın təbii istəyi, hüququdur. Lakin bu hüquq şər qüvvələr tərəfindən pozulur. Pozuntuların kökü isə mövcud qanunlardadır. Qanunları zəif və ədalətsiz olan cəmiyyətdə şər qüvvələrin sayı artır. Ona görə də mütəfəkkir zorakılığın cəzalandırılmasını zəruri hesab edərək yazır:

Hər kəs zülm eləsə görəcək sitəm,
Ən ağır cəzama olacaq düçar!

Nizaminin fikrincə, zəmanəni bürümüş zülm və zorakılıq insanlığın itməsinin nəticəsidir. Cəmiyyətdə tüğyan edən qanunsuzluqlar insanlığı sanki dəfn etmişdir. Mütəfəkkirin ideyasına görə, insanlığın əlaməti onun cəmiyyətə verdiyi faydadan, xeyirdən və göstərdiyi xidmətdən ibarətdir. Bəşəriyyətə xidmət etmək insanlığın şərəfidir. Hünər sahiblərin qənaətlərinə görə, bəşərə xidmət etməkdən gözəl əməl yoxdur. Nizami xalqın rifahı naminə verilmiş, ümumiyyətlə, humanist qanunların pozulmasına qəti etirazını bildirirdi. Başqa sözlə, hər cür qanunsuzluğun cəzalandırılması, ədalətli qanunlar yaradılması, humanist qanunlarla idarə etmək istəyi mütəfəkkirin ictimai-siyasi və hüquqi görüşlərinin səciyyəvi xüsusiyyətlərindəndir. İctimai-siyasi və hüquqi ideyalarının təhlili göstərir ki, Nizamidə sosial ədalətsizlik qanunçuluğun, qeyri-bərabərlik hüquqların, zülm və zorakılıq isə azadlıqların inkarı kimi çıxış edir. Ona görə də ədalətsizliklə qanunçuluq, zorakılıqla azadlıq bir yerdə yaşaya, mövcud ola bilməz. O, yazır:

Bu zülmə, haqsızlığa dözmək çətindir, çətin,
Mənim abrım tapdanır, səninsə ədalətin.

Nizami qanunsuzluqları insanın şərəf və ləyaqətinin alçaldılması, zorakılığı, istibdadı isə köləlik vəziyyəti kimi qiymətləndirir. Mütəfəkkirin fikrincə, cəmiyyətdə qanunların humanistliyi onların insanlara verdiyi azadlıqların həcmi ilə ölçülür. Yəni insanın istər ictimai həyatda müstəqil və sərbəst fəaliyyəti, istərsə də dövləti idarəetmə işlərində iştirakı ona verilən hüquqların və mövcud qanunların məzmunundan asılıdır.

Nizaminin təbirincə, cəmiyyətdə qanunçuluğa nail olunması bir sıra vacib şərtlərə əməl edilməsi vasitəsilə mümkün ola bilər. Mütəfəkkir burada, hər şeydən əvvəl, hüquqlara hörmət edilməsini və onların müdafiə olunmasını, zorakılığın aradan qaldırılmasını, ictimai faydalı əməyə xor baxılmamasını, şəxsiyyətin toxunulmazlığını, insanın şərəf və ləyaqətinə hörmət göstərilməsini, insan haqlarının məhdudlaşdırılmamasını nəzərdə tuturdu.

**İkinci fəslin ikinci yarımfəsli «Qanun və qanunçuluğa dair ideyalarda utopik motivlər»** adlanır. Dövlət, hüquq, hakimiyyət, siyasət və qanun kimi məsələlərin araşdırılmasında antifeodal istiqamət sosial utopiya qismində ictimai-siyasi təfəkkür sahəsi çərçivəsində yeni məna kəsb etmişdir. Bu, XI-XII əsrlərdə Nizaminin ictimai-siyasi görüşlərində, XIII əsrdə isə Nəsirəddin Tusinin siyasi-hüquqi təlimində müstəqil və kifayət qədər görkəmli yer tutmuşdur.

Nizaminin ilk əsəri olan «Sirlər xəzinəsi»ndən başlayaraq, sonuncu əsəri «İsgəndərnamə» də daxil olmaqla müasiri olduğu quruluşun qüsurlarının və ədalətsiz qanunlarının tənqidi ilə çıxış etmişdir. Nizaminin utopik ideyalarının məzmununu zalım quruluşa qarşı dərin etiraz motivləri təşkil edir. Mütəfəkkir bütün sosial bəlaların kökünü feodalizm qanunlarının ədalətsizliyində görürdü. Sanki zəmanənin nəbzinin vurması da həmin ədalətsiz qanunların işləməsindən asılı vəziyyətə düşmüşdür. O, yazır:

Dünya özü zalımdır, zülm eyləyir varlığa,
Ədalət hakimliyi qalıb hökmdarlığa.

Nizaminin ictimai-siyasi görüşlərinə xüsusi spesifiklik verən cəhət məhz utopik motivlərdir. Bu motivlərin abstraksiyadan ibarət olmasına baxmayaraq, onların hər birinin arxasında humanist bir şəxsiyyətin böyük idealları durur. Nizami utopiyası hər hansı qanunsuzluğunun inkarıdır. O, insanın təbii ehtiyaclarından biri olan azadlığa və sosial bərabərliyə qarşı yönələn hər hansı qanunsuzluğun barışmaz düşmənidir. Bu utopiyaya uyğun olaraq insan öz xoşbəxtliyini və səadətini qanunları humanist və ədalətli olan cəmiyyətdə tapır. Mütəfəkkir yazır:

Dünyada fateh olmaz zülmkarlıq, rəzalət,
Yer üzünün fatehi ədalətdir, ədalət.

Nizaminin məntiqinə görə, ideal, mütəşəkkil cəmiyyətin varlığı və möhkəmliyə əməl edilmələri bütün cəmiyyət üzvləri üçün məcburi olan müxtəlif vəzifələrin, öhdəliklərin bölgüsünü tələb edir. Belə cəmiyyətdə insanların bütün hərəkət və fəaliyyəti qanunlarla müəyyənləşdirilmiş həddə və çərçivədə həyata keçirilir. Buna görə də elə mütərəqqi quruluş olmalıdır ki, orada insanların fikri və düşüncəsi təmiz və yüksək, şəxsiyyət isə kamilləşmiş bir vətəndaş olmalıdır. Belə cəmiyyəti insanların özləri qurmalıdır. Bu cəmiyyətin üzvləri qanunların mahiyyətini düzgün dərk etməli, ictimai işləri və dövlət işlərini idarə etməyi bacarmalı, qanunçuluğa riayət etməlidirlər.

Əslində, Nizaminin yuxarıda ifadə etdiyi ideyaları öz mahiyyətinə görə utopik səciyyə daşıyırdı. Bu onu göstərir ki, Nizami öz dövrünü xeyli qabaqlamışdı. O, uzaq gələcəklə öz dövrü arasında körpü salmağa nail olmuşdu. Mütəfəkkir tərəqqiyə, dünyanın dəyişəcəyinə və insanların xoşbəxtliyinə inanırdı. Çünki Nizami varlığı ilə xalq kütlələrinə bağlı idi. Mütəfəkkirin sosial utopiyasının bir mühüm cəhəti də onun mübarizə və üsyankar olmasıdır. Nizaminin ictimai-siyasi və hüquqi görüşlərinin qanun və qanunçuluqla bağlı hissəsindəki utopik motivlər onun dünyagörüşünün və dərin düşüncəsinin nəticəsi idi. Ən başlıcası odur ki, Nizami öz arzu və istəklərinin bir gün reallaşacağına dərindən və möhkəm inanırdı. Ona görədir ki, mütəfəkkirin abstrakt şəkildə ifadə etdiyi bir çox problemlər aktuallığını hələ də itirməmişdir. Bu, ilk növbədə insan haqlarına hörmət, onların müdafiəsi və təminatı bu gün də qlobal problemlər kimi aktuallıq kəsb edir. Nizaminin sosial utopiyası sonrakı əsrlərdə ideal cəmiyyət haqqında utopik görüşlərin formalaşmasına və inkişafına mühüm təsir göstərmişdir. Bu, eyni zamanda ideal cəmiyyətə dair məsələnin nəzərdən keçirilməsi gedişində mütəfəkkirin bəzi ideyaları üzərinə yenidən qayıtmağı zəruri edir.

**İkinci fəslin üçüncü yarımfəsli «İdeal cəmiyyət haqqında görüşlərdə qanun və qanunçuluq məsələsi»** adlanır. Orta Şərq humanizminin məhsulu olan ideal cəmiyyət haqqında ideya və fikirlərdə demokratik meyllərə və xalq kütlələrinin tarixdəki rolunun müsbət xarakterinə dair yönümə təsadüf olunur. Göstərmək zəruridir ki, Yaxın və Orta Şərqin siyasi və hüquqi fikir tarixində ictimai həyat – şəhər-dövlət haqqında təlim Əbu Nəsr əl-Fərabi tərəfindən yaradılmışdır. Onun bir sıra əsərləri («Xeyirxah şəhərin sakinlərinin görüşləri haqqında traktat», «Səadətə çatmaq haqqında kitab», «Səadətin yollarının göstərilməsi» və s.) xüsusi olaraq ideal cəmiyyətə dair məsələyə həsr edilmişdir. Əl-Fərabinin ictimai-siyasi görüşləri, o

cümlədən ideal cəmiyyət haqqında ideyaları Azərbaycanda Nizami, Tusi, Əssar Təbrizi tərəfindən inkişaf etdirilməklə yanaşı, özünəməxsus orijinal bir məzmun kəsb etmişdir.

Nizaminin ideal cəmiyyətə dair ideyaları ilahi bir istedadın nəticəsidir. Mütəfəkkirin bu təlimi Yaxın və Orta Şərqin sosial utopiya ilə bağlı fikir tarixini daha da zənginləşdirmiş, ideal cəmiyyətə dair ideyaların Şərqin hüdudlarını aşaraq Avropanın ictimai-siyasi həyatında formalaşmasında görkəmli rol oynamışdır. Həmin ideyalar XII əsrə qədər tarixən mövcud olan bu və ya digər dərəcədə xəyali ideala yaxınlaşan, müvəqqəti olsa da ömür sürmüş demokratik quruluşlu dövlətlərin həyatiliyinin qanunauyğun və məntiqi davamıdır. Dahi mütəfəkkirin ideal cəmiyyət haqqında təlimini uydurma, yaxud həyata keçməyəcək arzu, boş fantaziya hesab etmək olmaz və bu, ədalətsizlik olardı. Həmin təlim öz məzmunu etibarı ilə müəyyən qədər fantastik, xəyali olsa da, real bir istəyi, proqram arzunu ifadə edir. İdeal cəmiyyət haqqında təlim Nizaminin ümumbəşəri ideallarin inkişafında yaxından iştirakının bariz nümunəsidir.

Nizaminin ideyasına görə, insanın mənəvi cəhətdən kamilləşməsi cəmiyyətin əxlaqi zənginliyinin rəhnidir. Lakin insan (fərd) yalnız azad və mütərəqqi cəmiyyətdə kamillik zirvəsinə qalxır, özü üçün lazımi həyatı qurmaq imkanı əldə edir. Azad və bərabərhüquqlu insanların cəmiyyət üçün sosial bərabərsizlik, qanunsuzluq, özbaşınalıq, zorakılıq, qanlı və ədalətsizlik müharibələr, sabitliyin, birliyin və mütəşəkkilliyin olması qəbuledilməzdir. Deməli, insanın yaşaması, onun hüquqlarının realizəsi bilavasitə cəmiyyətlə, cəmiyyətin özünün nümunəviliyi ilə bağlıdır.

Nizami maarifçi monarx idealını hökmdar Şirinin şəxsində xüsusi dəqiqliklə təsvir edir. Şirin ideal hökmdar üçün zəruri olan bütün keyfiyyətlərə malikdir. O, insanpərvəp bir hökmdar kimi öz təbəələrinin hüquqlarına hörmətlə yanaşır, onların zəhmətlərini qiymətləndirir və onların qayğısı ilə yaşayır. Nizami yazır:

Şirinin əlinə çatanda şahlıq,
Ölkədən hər yana yayıldı işıq.
Ədalətlə etdi rəiyyəti şad,
Məhbuslar oldular həbsdən azad.

Azərbaycan ictimai-siyasi fikir tarixində sosial-siyasi görüşlərinin ideal cəmiyyətə dair utopik motivləri ilə diqqəti cəlb edən mütəfəkkirlərindən biri də XIII əsrin görkəmli şəxsiyyəti N.Tusidir (1201-1274). Tusinin dövlət haqqında təliminə uyğun olaraq əhalinin firavan və xoşbəxt yaşadığı, xeyirxahlığın hökm sürdüyü və hamı tərəfindən ehtiram edilən hökmdarın idarə etdiyi dövlət ideal dövlətdir.

O, yazır: «…adamlar arasında… əməkdə birlikləri ondan ibarətdir ki, kamal əldə etdikdə eyni cür çalışır, gördükləri işlər hikmət əsasında yaxşı düşünülmüş, gözəl nizama salınmış saf münasibətlər üzərində qurulur, ədalət qanunlarına, siyasət işlərinə riayət edilir».

Tusi arzu etdiyi və təsəvvüründə canlandırdığı ideal dövləti tam mənası ilə saf əxlaqlı, nəcib xislətləri olan insanların təşkilatı kimi görmək istəmişdir. O, insanların bu dünyada həmişə yeniliyə, inkişafa meyl etdiklərini qeyd etməklə yanaşı, həm onların yaxşı güzəran keçirməyə möhtac olduqlarını dəfələrlə göstərmişdir. Bu mənada ideal dövlət haqqında ideyaları mütəfəkkirin utopik arzu və istəklərinə cavab verirdi. Tusinin ideal dövlət haqqında fikirlərində belə bir ruh da hakimdir ki, şahlıq və sultanlıq iddiasında olan hər bir kəs xalqa arxa çevirib onun üzünə ağ olmamalıdır. Çünki hamının xeyri üçün olan bir elmin «əməyin həqiqi və ümumi inkişaf qanunları haqqında nəzəriyyənin» mövcud olmasının özü bir hikmətdir.

Mütəfəkkirin fikrincə, insanların azad yaşaması, çalışması üçün hər hansı bir siyasi qüvvənin mövcud olması vacib deyildir. İnsanlar öz üzərində hər hansı bir hakimiyyəti hiss etmədən də qarşılıqlı yardım şəraitində yaşaya bilər. Başqa sözlə, cəmiyyəti idarə etmək, onun üzərində müəyyən qayda-qanun qoymaq hər dövrdə lazım deyildir. Tusinin ideyasına görə, «…hər dövrdə, hər zamanda hökmdara ehtiyac yoxdur; əhali arasında nizam-intizam olsa, bu, uzun müddət onlara bəsdir. Lakin bütün dövrlərdə müdrik bir rəhbərə, tədbir sahiblərinə ehtiyac vardır; tədbir olmasa…, insan cəmiyyəti lazım olduğu kimi inkişaf edə bilməz». Tusi ideal cəmiyyətdə vəzifələrin maksimum dərəcədə ixtisaslar üzrə verilməsinin tərəfdarı kimi, tək bir şəxsə bir neçə vəzifənin tapşırılmasının əleyhinə çıxır, dövlət vəzifələrinin verilməsində son dərəcə diqqətli olmağı tövsiyə edirdi. O, vəzifələrin ixtisaslara uyğun verilməsinə üstünlük verərək, vəzifəyə mütəxəssisin bilik və bacarığına görə yerləşdirilməsinin əhəmiyyətini qeyd edirdi. Ona görə də müasirlərinə, xüsusilə də dövlət işlərində çalışanlara tərəfgirliyə və ya saxta himayədarlığa, qeyri-obyektivliyə yol verməmələrini tövsiyə edir, belə hallardan uzaq olmağı məsləhət bilirdi.

Görüşlərinin təhlili göstərir ki, Tusinin siyasi idealı üçün maarifçi monarxiya idarəçilik forması səciyyəvi olmuşdur. Çünki müdrik, elmli və fəzilətli dövlət başçısının təbliği Tusinin siyasi görüşlərinin ən mühüm xüsusiyyətlərindən biridir.

İdeal cəmiyyət haqqında danışarkən ictimai-siyasi görüşləri və ümumiyyətlə, yaradıcılığı ilə Nizami məktəbinin böyük davamçısı, XIV əsr Azərbaycan mütəfəkkiri Əssar Təbrizinin (1325-1390) də sosial utopiyasının bəzi səciyyəvi xüsusiyyətləri üzərində dayanmaq zəruridir.

Əssar Azərbaycanın ictimai-siyasi və hüquqi fikir tarixinə humanist və demokratik ideyaların təbliğatçısı kimi daxil olmuşdur. O, Nizami məktəbinin layiqli davamçısı olmaqla öz sələfinin ideyalarını yaradıcılıqla inkişaf etdirmişdir. İctimai-siyasi fikir tariximizdə Nizami ideyalarını Əssar qədər bütün varlığı ilə inkişaf etdirən ikinci mütəfəkkir tapmaq çətindir.

Mütəfəkkirin təsvir etdiyi ideal ölkədə – Xarəzmdə xalqın mənafeyi hər şeydən üstün tutulur. Bu nümunəvi ölkədə insan azadlıqları müqəddəs hesab olunur. Bunun nəticəsidir ki, Xarəzm ölkəsinə gələnlər gördüklərinə heyran qalır, özlərini sanki cənnətdə hiss edirlər. Əssarın təqdim etdiyi kimi:

Cənnət bağı adlandırır görənlər bu şəhəri,
Bura hücum edə bilməz dərdü aləm ləşkəri.

Xarəzm ölkəsində xalqın rifahı naminə mövcud olan faydalı əmək həyatın ən ümdə tələbatına çevrilmişdir. Ölkənin hökmdarı Keyvan xalqın tələbatlarını təmin etmək üçün öz imkanlarını əsirgəmir. O, buna nail olmaq üçün həmişə müdrik və ağıllı adamlarla məsləhətləşir, dövlət işlərinin həllində alimlərin qüvvəsindən istifadə edir, onlardan tövsiyələr alır. Belə tədbirlər Keyvan şahın qurduğu azad cəmiyyətdə xalqın daha xoşbəxt yaşamasını təmin edir. Buna görə də həmin ölkənin sakinləri özlərinin nikbinliyini və həyatsevərliyini heç vaxt gizlətmirlər və bununla seçilirlər. Əssar yazır:

Bu ölkənin adamları görünürdü şadiman,
Gülərüzlü, nəvazişli, bir-birinə mehriban.
Bazarında şənlik üçün var hər cürə şirniyyat,
Səhnəsində qəm görünməz, şadlıqla coşur həyat.

Ə.Təbrizinin ideal ölkəsində ehtiyacı olanlara dövlət tərəfindən həmişə yardım göstərilir. Dövlət xəzinəsi də məhz xalqa qayğı və yardım göstərmək üçün fəaliyyət göstərir. Mütəfəkkirin ideal ölkəsini səciyyələndirən cəhətlərdən biri də burada nizami ordunun saxlanmasıdır. Lakin bu ordu, hər şeydən əvvəl, ölkəni və onun sakinlərini xarici düşmənlərdən, onların hücumlarından müdafiə etmək üçün mövcuddur. O, işğalçı ordu deyildir, çünki xarəzmlilər hərb istəmirlər.

Əssarın ideal cəmiyyət haqqında utopik fikirləri onun «Mehr və Müştəri» poemasında ifadə edilmişdir və həmin fikirlər sosial ədalətin müdafiəsi, xüsusən də ədalətli hökmdar ideyası ilə müşayiət olunur. Nizamidən sonrakı dövrdə sosial ədalətin müdafiəsi məsələsi məhz Tusinin və Əssarın ictimai-siyasi görüşlərində geniş yer almışdır. Bu baxımdan Əssar öz böyük sələfi Nizaminin ideyalarını dərindən əxz

etməklə yanaşı, sosial ədalətin təntənəsinə dair orijinal mövqeyini nümayiş etdirə bilmişdir.

İdeal dövlət layihəsi baxımından Nizaminin «İsgəndərnamə» («İqbalnamə» hissəsi) poeması bərabəri olmayan bir abidədir. Nizaminin ideal dövlətində elə bir ədalət hökm sürür ki, onun olmaması cəmiyyətin məhvinə səbəb olardı. Bu ədalət hökmdarın verdiyi fərman və hökmlərlə qorunur. Həmin qanunlar istənilən zülmün qarşısını alır, hər hansı zorakılığı dərhal cəzalandırır, cüzi də olsa, qanunçuluğun pozulmasına yol vermir. Əks təqdirdə cəmiyyət həyatının normal axarı pozular, ölkədə insaf və ədalətdən heç bir nişanə qalmazdı. Bunu Nizaminin aşağıdakı fikrindən də görmək olar:

Bu yer ədalətə görə verər bar,
Zülümdən zavala gəlib məhv olar.
Bu yerdə zülm olsa bir arpa qədər,
Arpanı, buğdanı yel, sel məhv edər.

İdeal dövlətdə sakinlərin əxlaqi keyfiyyətləri, dinpərvərliyi qanunçuluğa əməl etməyə zəmin yaradır. Cəmiyyətin inkişaf axarı elədir ki, o, pislikləri rədd edir, rahat yaşamaq üçün, əzab-əziyyətə düşməməkdən ötrü düzlüklə ömür sürməyə üstünlük verir. Əslində bu dövlətdə qanunlar elə ahəngdarlıqla işləyir ki, xətalı işlərə nəinki yol verilmir, onlar heç yaxına buraxılmır. Nizami təsvir etdiyi ideal cəmiyyətin mahiyyətini onun sakinlərinin dili ilə aşağıdakı kimi təqdim edir:

Fağır bir tayfalıq, həm də dinpərvər,
Düzlükdən keçmərik əsla tük qədər.
Əyri dolanmaqla yoxdur işimiz,
Düzlükdən başqa yol tanımırıq biz.

Nizaminin ideal cəmiyyətində qanunlar iqtisadi münasibətlərin tənzimində də az rol oynamır. Qanunların bu sahədə ədalətli və humanist olmaları, hər şeydən əvvəl, onların bərabərləşdirici funksiyasını yerinə yetirmələrində təzahür edir. Burada qanunlar mal və mülkə sahib olmaqda ayrı-sekiliyə yol vermir. Qanunlar elə məzmunda yaradılmışdır ki, zəruri nemətləri əldə etmək sahəsində hamı bərabər, eyni hüquqlardan istifadə edir. Bu, həmçinin iqtisadi cəhətdən hamının bərabərliyini əks etdirir. Nizaminin təsvir etdiyi utopik cəmiyyətdə ölkə qanunlarının məqsədi hamının bolluq şəraitində yaşamasını təmin etməkdən ibarətdir. Ona görə də bu cəmiyyətdə kimi isə yoxsul, bir başqasını varlı adlandırmaq mümkün deyil. Nizami yazır:

Bizdə bərabərdir hamının malı,
Bərabər bölərik bütün malları.

Tədqiqat əsərinin **üçüncü fəsli "Qanun və qanunçuluğa dair görüşlərin yeni əsaslar üzərində inkişafı"** adlanır. Bu fəsil üç yarımfəsildən barətdir. **Fəslin birinci yarımfəsli "Qanun və qanunçuluğa dair görüşlərin demokratik cəhətləri"** adlanır. XIII-XIV əsrlərdə Azərbaycan xalqının tarixində, cəmiyyətin və dövlətçiliyin inkişafında bəzi spesifik irəliləyişlər olmuşdur. Qeyd etmək zəruridir ki, XIII əsrdə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında islamın siyasi-hüquqi ideologiyasının və şəriətin tam möhkəmləndiyi və qüvvədə olduğu dövrdür. Ümumiyyətlə, orta əsrlərdə Azərbaycanın hüquqi həyatında qüvvədə olan şəriət normaları cəmiyyətdəki münasibətləri hakim ideologiyanın mövqeyindən tənzimləyirdi. Belə bir şəraitdə meydana gələn mütərəqqi siyasi-hüquqi ideyaların səciyyəvi xüsusiyyəti ədalətli qanunlar verilməsinin tələb və təbliğindən ibarət idi. Məhz belə səciyyəvi xüsusiyyətlər Tusinin qanun və qanunçuluqla bağlı fikirlərinin nəzərə çarpan demokratik cəhətləridir.

N.Tusinin qanunların mənşəyi və mahiyyətinə münasibəti, hər şeydən əvvəl, teologiyadan uzaqdır və belə münasibət təbii hüquq nəzəriyyəsinə yaxınlığı ilə xarakterizə oluna bilər. Mütəfəkkirin məntiqinə görə, qanun hər hansı təbii qüvvənin məhsulu deyildir və o, insanların tarix boyu apardıqları mübarizənin nəticələrindən biridir. Qanunu əməli (qərarı) hikmətin məhsulu hesab edən mütəfəkkir yazır: "Camaatın qərarı əsasında yaranan və qərarı olanlardan biri də qayda-qanunlardır". Tusinin ideyasına görə, qanun, hər şeydən əvvəl, insanın elmi və əməli fəaliyyətinin nəticəsidir. Tusinin fikrincə, qanun mücərrəd hallarla bağlı verilmir, o, "…şəhər əhalisinə, ölkə sakinlərinə aiddir". Əxlaq normaları cəmiyyət tərəfindən qorunub mühafizə edildiyi kimi, elə edilməlidir ki, qanunlar da "…yox edilib aradan çıxarıla bilməsin:" Çünki qanunlar da insanların hərəkət və davranışlarının düzgün istiqamətdə olmasına və insanların tərbiyəsinə yönəldilmişdir.

Tusinin hüquqi təlimində "qanun" və "siyasət" bir-birindən ayrılmaz anlayışlar kimi təzahür edir. Onun mövqeyinə görə, ölkə sakinlərinin idarə edilməsi siyasəti dedikdə, tərtib edilmiş müxtəlif qayda-qanunlar başa düşülməlidir. Deməli, dövlətin qanunyaratma (hüquqyaratma) sahəsindəki fəaliyyətinin özü siyasətdir. Özü də elə bir siyasət ki, onun vasitəsilə verilən qanunlar əhalinin idarə olunmasında tətbiq edilir. Tusi qanunların ədalətli və demokratik olmasını dövlət başçılarının siyasəti, onların şəxsi təbiəti ilə əlaqələndirirdi. Onun fikrincə, qanunu o halda ədalətli hesab etmək olar ki, şahın təbiətində ədalət və insanpərvərlik hissi olsun. Mütəfəkkirin məntiqinə görə, ədalətli hökmdar "…ədaləti əvvəlcə özünə tətbiq edər, sonra yaxın adamlara, daha sonra isə şəhər əhlinə. Ədalət fəzilətin bir hissəsi deyil,

küll halında hamısı olar, onun əksi olan zülm və rəzalətlərin bir qismi deyil, bəlkə hamısı olar…”. O, təbiətində və ölkənin idarə edilməsində ədalətdən nişanə olmayan hökmdarların, ədalətli və demokratik qanunları görə bilməyən xalqın vəziyyətinə təəssüflənirdi.

Tusi, ümumiyyətlə, ədalətli və demokratik qanunların verilməsinin tərəfdarı olmuşdur. Bu, onun ideal cəmiyyət haqqındakı mülahizələri və etik görüşləri, həmçinin sosial ədalət kateqoriyası barəsindəki fikirləri ilə sıx bağlı olmuşdur. Mütəfəkkir yazır: “Rəiyyəti ədalət, fəzilət və hikmət qanunları əsasında idarə etmək lazımdır”. Əks təqdirdə hər şey tənəzzülə uğrayar.

Tusi sosial ədaləti bütün ictimai münasibətlərin ən üzvi müşayətedici hesab etdiyi üçün onu qanunların da əsasında, məna-mahiyyətində olan başlıca meyarlardan biri kimi qiymətləndirirdi. Mütəfəkkirin təbirincə, “…fəzilətlərdə ədalətdən şərəfli olan ikinci bir fəzilət yoxdur”. Onun ideyasına görə, ədalət həqiqətin ortasında olar, hər şey onun ətrafında dövrə vurar, buna görə qanunlar da həmişə ona tərəf meyl etməlidir. O, yazır: “Hər şeydə ortalığı təyin edə bilmək və onun dərki sayəsində əyintilərə yol verməmək yalnız bərabərlik nəticəsində olur ki, buna da vicdan səsi deyilir”. Məhz bu nöqteyi-nəzərdən ədaləti fəzilətin ən yüksək pilləsi hesab edən Tusi yazır: “…hər şey kamala doğru ədalət qanunları əsasında inkişaf edər”.

Azərbaycanın orta əsrlər siyasi-hüquqi fikrində qanunla bağlı görüşlərin demokratik cəhətlərinə XIII əsrin sonu və XIV əsrin birinci yarısında yaşayıb-yaratmış Əvhədi Marağayinin (1274-1338) yaradıcılığında da təsadüf olunur. Tusinin qanun konsepsiyası Əvhədinin hüquqi görüşlərinin formalaşmasına güclü təsir göstərmişdir.

Əvhədinin nəzərində qanun qarşılıqlı münasibətləri tənzimləyən ölçüdür. Bununla yanaşı, qanun cəmiyyətin asayişini təmin edən vasitələrdən biri kimi çıxış edir. Qanun hər bir fərddən düzgün davranış, düşünülmüş hərəkət etməyi tələb edir. Belə tələbin pozulması cəmiyyətin nizamını pozur, əhali arasında fitnə-fəsad törədir. Ona görə də qanunlara həmişə riayət edilməlidir. Əvhədinin qanunlara münasibəti subyektivdir. O, şəriətin cəmiyyətə münasibətdə bəzi yabançı normalarının üzərindən sükutla keçə bilməmişdir. Mütəfəkkir zəruri bir ölçü hesab etdiyinə görə, qanunları həmişə yüksək görmək istəmiş, özü onları yerinə yetirməkdə nümunə olmağa səy göstərmişdir.

Əvhədi qanunlara hörməti əsas şərtlərdən biri hesab edirdi. “Mən qayda-qanundan qaldırdım bayraq”, - deyən mütəfəkkir öz müasirlərində yüksək intizam, tərbiyəvi davranış görmək istəmişdir. Onun ictimai-siyasi görüşlərinin təhlili göstərir ki, Əvhədi qanun adı altında cəmiyyəti düzgün istiqamətləndirə bilən, insanların müşkülünü

asana çevirən zəruri bir vasitə görmüşdür. Ölkədəki qanunsuzluqları hökmdarlara nöqsan tutan Əvhədi belə vəziyyəti zülm hesab edir və göstərirdi ki, qanunsuzluq ölkəni bərbad edə bilər. Ona görə də mütəfəkkir belə vəziyyətin yaranmasına səbəb olan dövlət məmurlarının, həmçinin bədxahlıqlara yol verənlərin cəzalandırılmasını tələb edirdi. O, yazır:

Dara çəkilməsə oğru bir adam,
Demək qayda-qanun pozulmuş tamam.

**Üçüncü fəslin ikinci yarımfəsli "Qanunçuluq və ədalət mühakiməsinin bəzi məsələləri"** adlanır. Göstərilən yüzilliklərdə Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatında baş verən hadisə və proseslər, şübhəsiz ki, öz əksini siyasi və hüquqi ideyalarda da tapmışdır. Bu, həmçinin də qanunçuluq və ədalət mühakiməsinin bir sıra cəhətlərinin həmin dövr mütəfəkkirlərimizin yaradıcılığında özünəməxsus xüsusiyyətləri ifadə edilmişdir. Qanunçuluğa və ədalət mühakiməsinə tənqidi münasibət əsasən Tusinin və Əvhədinin siyasi-hüquqi görüşlərində öz əksini tapmışdır.

Tusinin ədalət mühakiməsinin həyata keçirilməsinə dair fikirlərinin mərkəzi xəttini, hər şeydən əvvəl, şəxsiyyətin hüquq və vəzifələrinin, təbii azadlıqlarının qorunması, həmçinin məhkəmənin fəaliyyətində qanunçuluğun mühafizəsi təşkil edir. Mütəfəkkirin məntiqinə görə, qanunların icrasında səlahiyyət həddini aşmaq da, yaxud onlara tam həcmdə əməl etməmək də hüquqların pozulması deməkdir. Belə pozuntular isə məhkəmə vasitəsilə aradan qaldırıla bilər və buna görə də cəza labüddür. Lakin cəza ədalətli olmalı, o, müqəssirə işgəncələr verilməsi nəticəsində etiraf edilən törədilmiş cinayətin nəticəsi kimi çıxış etməməlidir.

Böyük mütəfəkkir ədalət mühakiməsi prosesində təqsirkarlar barəsində tətbiq edilən kobudluqları tənqid edərək yazır: "Qəzəb sahibi… camaatı ara vermədən əzab və əziyyət girdabına sürüklər, nə sübut və dəlillərinə inanar, balaca bir səbəb üstə dilini və əlini işə salar, söyüb döyməyə başlar, o qədər əzab-əziyyət verər ki, onun qəzəbinin şiddətindən qurtarmaq üçün özlərinə böhtan deməyə, xəbərləri olmadığı şeyləri artıqlaması ilə etiraf etməyə razı olarlar. Xülasə… bu, şərəf və izzət deyil, kobudluq, qəddarlıq və rəzalət hesab edirlər". Tusi insanın ehtimallara görə mühakimə olunmasının əleyhdarı olmuşdur. O, böyük bir insanpərvər kimi ədalətli və qanuni hökmlər çıxarılmasının tərəfdarı idi. Mütəfəkkir belə hesab edirdi ki, hakimin çıxardığı hökm təqsirkarın şəxsiyyətini, onun şərəf və ləyaqətini alçaltmamalıdır. Bunu «hökmün hüsnü» kimi qiymətləndirən Tusi insan haqlarının və azadlıqlarının əsl müdafiəçisi təsiri bağışlayır.

Feodal-patriarxal cəmiyyətində dövlətin əsas orqanlarından biri kimi fəaliyyət göstərən məhkəmələr barəsində fikirlər Əvhədinin ictimat-siyasi görüşlərində az yer tutsa da, onlar tənqidi mülahizələrlə zəngindir. Mütəfəkkirin orta əsr məhkəmələri haqqında düşüncələri o dövrün ədalət mühakiməsinin konkret xarakteristikasını verir, tədqiqatçı, oxucu həmin mənzərəni gözləri qarşısında dərhal canlandırmaq imkanı əldə edir. Əvhədinin, hər şeydən əvvəl, şəriət normalarının sərt və qəddar olması narahat edirdi. Mütəfəkkir əməkçi xalq barəsində sərt və cəzalar tətbiq edən dövlət məmurlarını tənqid edərək, hiddətli bir tərzdə yazır:

Sən ey başqasını cəzalandıran,
Cəza verəcəksən özünə haçan.

Orta əsr feodal mühakimə icraatının aparılmasında yol verilən qüsurların tənqidi və ifşası Əvhədinin xüsusilə də «Cami-Cəm» əsərində onun hüquqi görüşlərinin səciyyəvi cəhətlərindəndir. Mütəfəkkir müasiri olduğu dövrdə baş alıb gedən rüşvətxorluğu, qanunsuzluqları təsvir edərək, hakimlərin biliksiz və nadan olduqlarından, haqqın və ədalətin tapdalanmasından hiddətlə, qəzəblə danışır. Böyük mütəfəkkir müasirlərinə və bütün haqqsevər insanlara öz həmnövlərinin hüquqlarını müdafiə etməyi tövsiyə edirdi. Çünki məhkəmələr müdafiə deyil, ancaq məzlumları cəzalandırmaq funksiyasını yerinə yetirirdi. Ona görə də Əvhədi rəiyyətə bacardıqca məhkəmələrdən uzaq olmağı məsləhət bilirdi. O, dövlət idarəçiliyinin belə mühüm sahəsində fırıldaqçılığın, natəmizliyin hökm sürməsinin canlı şahidi kimi, məhkəməni özbaşınalıqlar yuvası adlandırırdı. O, orta əsr feodal məhkəməsinin simasını aşağıdakı kimi təsvir edir:

Çalış məhkəməyə sən bağlama bel,
Fırıldaq işlərə razı olma gəl.
Ay tək parlasa da sənin işlərin,
Pis vəkil onları korlayar yəqin.

**Üçüncü fəslin üçüncü yarımfəsli «Qanun və qanunçuluq orta əsrlərin romantizmi aynasında»** adlanır. Azərbaycanın siyasi-hüquqi fikir tarixinin XIV-XV əsrlərdə inkişafı hürufiliyin siyasi-hüquqi ideologiyasının təşəkkülü, həmçinin onun banisi Fəlüllah Nəiminin və görkəmli nümayəndəsi İmadəddin Nəsiminin dünyagörüşünün formalaşması, hürufuliyi geniş bir məkanda yayılması ilə bağlıdır.

XV-XVI əsrlərdə müxtəlif ideoloji cərəyanlar və qüvvələr arasında kəskinləşən ziddiyyətlərin həlli onların yaxınlaşma və uzaqlaşma prosesini gücləndirir, ideologiyada sinkretizm yaradırdı. Bu dövrdə sufilik, işraqilik, kəlam, peripatetizm cərəyanlarından demək olar ki, heç biri əvvəlki əsrlərdə malik olduğu məzmununu xalis şəkildə

saxlamamışdı. Bu dövr həm də müxalifətçi ideologiyanın yüksəlişi dövrüdür. Təbliğ edilən ictimai-siyasi ideyalar ümumi bərabərlik kimi demokratik məzmuna malik idi. Həmin demokratiklik mütəfəkkirlərimizin yaradıcığında romantik motivlərlə müşayət olunurdu.

Məhəmməd Füzuli (1494-1556) XVI əsr Azərbaycan ictimai-siyasi fikrinin dahi nümayəndəsi, böyük humanist şəxsiyyətidir. Onun ictimai-siyasi görüşləri bütünlüklə feodalizm quruluşunun qanunlarının və üsul-idarəsinin kəskin tənqidinə həsr edilmişdir. Mütəfəkkir qəddar və zülmkar feodal üsul-idarəsindən, onun faciəli sosial bəlalarından, zülm və zorakılıqdan, dövrün haqsızlıqlarından və ədalətsizliklərindən narazılıq ifadə etmişdir. Buna görə də Füzulinin ictimai-siyasi məzmunlu lirikası alovlu bir ittiham kimi səslənir.

Füzuli yaşadığı mühitdə xalq üsyanlarının, kəndli hərəkatlarının bilavasitə şahidi olmuşdur. Hakimlərin verdiyi vədlərin yalan və uydurma olduğunu dərk edərək ictimai-siyasi görüşlərində daha radikal mövqe tutması bununla bağlı idi. Zəmanənin qan içən adət-ənənələri, qanunları insanları əsarətdə saxlayırdı. Mütəfəkkir özünün də bu dövrün, quruluşun əsiri olduğunu dərk edirdi:

Tökdükcə qanım oxun, ol asitan içər,
Bir yerdəyəm əsr ki, torpağı qan içər.

Dahi mütəfəkkirin hökmdara, qanunvericiyə verdiyi başlıca tələb möhkəm qanunçuluq yaratmaqdan və sosial ədaləti bərpa etməkdən və onu qorumaqdan ibarət idi. Füzulinin ideyasına görə, hökmdar ədalətli qanunlar yaratmalı və onların başlıca mühafizəçisi kimi çıxış etməlidir. Qanun qarşısında hamı – kəndli, sənətkar, tacir, ziyalı, şah və sultan da bərabər olmalıdır. Qanunlara riayət etmək hamı üçün məcburidir, çünki qanunçuluğun tələbi belədir. «Ədalətsiz hakimə dəvayi-hökumət nə rəva», - deyən mütəfəkkir dövlət hakimiyyətini xalqın həyatına məsul olan bir iş hesab edir və göstərir ki, «hökmdar vasiteyi-mövtü-həşatı xalqın…» Ədalətsizliyi bir yana, məzmunu xəta və qüsurlardan ibarət olan qanunların verilməsi nəticəsində ölkədə müxtəlif şər və fəsadların tüğyan etməsindən danışan Füzuli yazır:

Vay ol hakim kim, eyləyə hökmündə xəta,
Qıla məzlumları mərhəmətdən məhrum.

Füzuli «Mətləül-etiqad» əsərində qayda-qanun verənləri müdrik tədqiqatçı və müəllim adlandırır. O, qanunyaratmanı insanın şüuru fəaliyyətinin məhsulu, nəticəsi kimi qiymətləndirir. Cəmiyyətin məhz ədalətli qanunlarla idarə edilməsi baxımından dünyəvi hakimiyyətlə peyğəmbər hakimiyyətini müqayisə edən Füzuli, peyğəmbər hakimiyyətinin üstünlüklərindən danışaraq qeyd edir ki, «peyğəmbərlik

məsələsi davamiyyət tələb edir, yəni peyğəmbərsiz bir dövr ola bilməz; çünki peyğəmbərlik dünya işlərini nizama salır, bütün pozğunluqları düzəldir…»

Böyük mütəfəkkirin ictimai-siyasi görüşlərində maraq doğuran cəhətlərdən biri də ondan ibarətdir ki, qanunların yaşamasından ötrü dövlətin mövcudluğunun zəruriliyini qeyd edir: «İmamətin vücudu zəruridir; çünki islamın (daimi olaraq) yaşaması üçün şəriət ehkamı davam etməlidir». Burada əslində mütəfəkkir dövlət və hüququn bir-birindən təcrid edilmiş halda mövcud ola bilməməsini nəzərdə tuturdu.

Sosial bərabərsizliyin hökm sürdüyü feodal cəmiyyətində «…birinin sahibi tac, o birisini isə ona möhtac edən» ictimai quruluşda «düşmənlərin qəvi, taleyin zəbun, dərdin çox, həmdərdin olmadığı» dolaşıq zəmanədə azadlığın qeyri-mümkün və ona aparan yolların ağır və uzun olduğunu dərk edən Füzuli öz siyasi idealına uyğun olaraq romantik obrazlar yaratmışdır. Mütəfəkkirin «Leyli və Məcnun» poemasında yaratdığı Qeys, «Rindü Zahid»də Rind cəmiyyətin mövcud adət-ənənələrini ittiham edən, onun haqsızlıqları ilə üz-üzə dayanan, başqa sözlə, yaşadıqları quruluşa qarşı çıxan və onun qatı müxalifətdə olan romantik qəhrəmanlardır.

Füzulinin romantik qəhrəmanını, onu mənəvi və tam haqqı olduğu xoşbəxtlikdən məhrum edən qeyri-humanist qanunların və cəhalətpərəst adət-ənənələrini feodal cəmiyyətinin «hökmi-təqdiri» kimi qəbul edən Füzuli elə güman edirdi ki, mövcud ədalətsiz quruluşu, hətta inqilab yolu ilə də yeni, daha mütərəqqi olan bir quruluşla əvəz etmək mümkün deyil. «Hökmi-təqdir» feodal qayda-qanunlarıdır, insanın azadlığını, düşüncəsini, hisslərini buxovlayan orta əsrlərin ideologiyasıdır. Bu ideologiya ilə barışmayan Qeys bir-birini rədd etdiyindən, Qeysə nisbətən həmin ideologiyanın arxasında duranlar güclü, qadir, yenilməz olduqlarından Qeysin qələbəsinə heç bir tədbir kömək edə bilməzdi.

Humanist mütəfəkkir sadə xalq kütlələrini öz himayəsindən məhrum edən dövlət qanunlarına, belə qanunların varlığında maraqlı olan hökmdarların hakimiyyətinə və onların ətrafında cəm olan vəzifəli dövlət məmurlarına qəti etirazını bildirirdi. Onun fikrincə, məhz belə qəddar hökmranlıq cəmiyyətdə özbaşınalıqların baş qaldırmasına, belə hökumətin qayda-qanunları isə zülm və zorakılığın meydana çıxmasına səbəb olur. Qanun və hökmlərin məhz düşünülməmiş şəkildə verilməsinin, onların mənasında yol verilən kobud səhvlərin və xətaların nəticəsidir ki, onların tətbiqindən, icrasından məzlum kütlələr həmişə əziyyət çəkir. Mütəfəkkirin aşağıdakı qitəsində göstərildiyi kimi:

hökm gər olmasa dünyayə salır zülm fəsad,
hökm gər olmasa bulməz nəsli-mülk bəqa.

Mütəfəkkir ədalətli qanunların və möhkəm qanunçuluğun tərəfdarı kimi müasirlərini də məhz ədalətli qanunlara riayət etməyə çağırmış, qanunların humanistliyini hökmdarların ədaləti və humanistliyi ilə əlaqələndirmişdir.

Tədqiqat əsərinin **dördüncü fəsli «Qanunçuluğa dair görüşlər hakim feodal siyasi-hüquqi ideologiyası ilə mübarizədə»** adlanır. Həmin fəsil iki yarımfəsildən barətdir. **Birinci yarımfəsil «Cəmiyyətin qüsurlarına və feodal özbaşınalıqlarına haqq qazandıran qanunların tənqidi»** adlanır. XII-XVI əsrlər Azərbaycanda feodal münasibətlərinin müəyyən fasilələrlə yüksək inkişaf dövrü olmuşdur. Feodal münasibətlərinin inkişafı cəmiyyətdə aparıcı rola malik olan hökmran ideologiyanın, eyni zamanda da qabaqcıl ideyaların sıxışdırılması və təqib edilməsi cəhdləri ilə müşayət olunmuşdur.

Nəzərdən keçirilən yüzilliklərdə sərt və qəddar qanunların tənqidinə yanaşma ideya-məzmun baxımından bir-birindən fərqlənməsə də, cəmiyyətdə baş verən proseslərin qiymətləndirilməsində bəzi spesifik cəhətlər nəzərə çarpır. Belə ki, mövcud quruluşun ədalətsiz qanunlarının XII əsrdəki tənqidi poetik dillə ifadə edilməklə təsviri xarakter daşımış və dövlət həyatının konkret sferalarını deyil, başlıca olaraq cəmiyyətin özünün bütövlükdə tənqidilə bağlı olmuşdur. Məsələn, cəmiyyətin qüsurlarının və feodal özbaşınalıqlarına haqq qazandıran qanunların tənqidinə belə yanaşma Xaqani Şirvaninin siyasi-hüquqi görüşləri üçün səciyyəvidir.

Azərbaycan İntibahının ilk görkəmli nümayəndələrindən hesab olunan Əfzaləddin Xaqani Şirvani (1126-1199) Nizamiyəqədərki ictimai-siyasi fikrimizin ən parlaq simalarından biridir. O, siyasi-hüquqi fikrimizə humanist və demokratik ideyalar gətirmişdir. Xaqaninin ictimai-siyasi məzmunlu qəsidələri feodal cəmiyyətinin zorakı həyatını, feodalizm qanunlarının dözülməzliyini, bundan əziyyət çəkən xalqın hüquqsuzluğunu və ağır sosial həyatını əks etdirir. Mütəfəkkirin ictimai-siyasi görüşlərinin mütərəqqiliyi, ideyalarının müasirliyi də məhz bunda təzahür edir. Həmin ideyaların müasirliyi, hər şeydən əvvəl, onların humanistliyində ifadə olunur.

Xaqaninin dərin sosial-siyasi məzmunu ilə diqqəti cəlb edən «Mədain xərabələri» qəsidəsində ictimai-siyasi fikrimizin bir sıra orijinal nümunələri vardır. Əsər dövlət başçılarına xitabən qələmə alınmışdır. Burada mütəfəkkir əmin olduğunu bildirir ki, müstəbid hakimiyyət uzun müddət davam edə bilməz. Hakimiyyətin ömrü və möhkəmliyi dövlət başçılarının ağlından, ədalətindən və müdrikliyindən

asılıdır. Dövləti uzunömürlü edən amillərdən biri də qanunların insanpərvərliyi və idarəetmənin məhz belə qanunlar vasitəsilə həyata keçirilməsidir. Mütəfəkkir Mədain şəhərinin canlı şahidi olduğu xərabələrini feodal-patriarxal cəmiyyətinin özbaşınalıqlarının qanunauyğun nəticəsi hesab edir. Feodal cəmiyyətinin gerçəkliklərini, qanunların mahiyyətini əks etdirən Mədain xərabələri insanlığı, dünyanı sarsıdan, bəşəri ideallara ağır zərbə vuran bir mənzərədir. Xaqani bu xərabəliyi feodalizm quruluşu üçün ibrətamiz hadisə kimi qiymətləndirir və belə bir nəticəyə gəlir ki, bundan bütün dünya, insanlığa yad olan qanunlarla idarə olunan bəşəriyyət ibrət götürməlidir. O, yazır:

İbrətlə baz, ey könlüm, bu aləmə gəl bir an,
Eyvani-Mədaini ayineyi ibrət san.

Xaqaninin ictimai-siyasi görüşlərinin üsyankarlığını gücləndirən əsərləri içərisində «Qəsideyi-şiniyyə» mühüm yer tutur. O, bu əsərində xeyirxah insanla bədxah insanı qarşılaşdırmaqla zəmanəsinin təzadlı məqamına toxunmuşdur. Onun ideyasına görə yuxarı zümrənin mənafelərinə xidmət edən feodal qanunları bir növ fərdi xarakter daşıyır. Belə ki, qanunlar şəxsi mülahizələrə görə qəbul və tətbiq edilirlər. Xaqaninin ədalətli ictimai mövqeyi, ümumiyyətlə, onun siyasi görüşlərinin insanpərvər xarakteri feodalizm quruluşunun qayda-qanunlarının inkarı idi. Ona görə də mütəfəkkirin etirazları ittiham kimi səslənir:

Tökər sübhə qədər qan-yaş gözündən sel kimi məzlum,
Boğar zalımları rahat yataqda qanlı tufanı,
Əlac axtar qəza təqdirinə, sən əzdiyin aciz
Düşübsə torpağa, ahı yıxar ərşi-müəllanı.

**Dördüncü fəslin ikinci yarımfəsli «Feodal üsul-idarəsinin qanunazidd təzahürlərinin tənqidi»** adlanır. Göstərilən dövrdə feodal idarəetmə üsul və metodlarının törətdiyi ictimai bəlalar dövlət məmurlarının azğınlığının, tamahkarlığının, rüşvətxorluğu və müftəxorluğunun əyani göstəricisi idi. Məhz bunun nəticəsi idi ki, insan haqlarının pozulması, şərəf və ləyaqətin təhqir edilməsi, sərt və qəddar cəzaların tətbiqi ilə həyata keçirilən ədalət mühakiməsi, xalqı müflis edən vergi sistemi və işğalçılıq məqsədilə aramsız surətdə aparılan müharibələr orta əsrlərin feodal dövlətinə xas olan əsas cəhətlərdir.

XII-XIV əsrlərdə yaşayıb-yaratmış Azərbaycan mütəfəkkirlərinin ictimai-siyasi görüşlərində diqqəti cəlb edən səciyyəvi xüsusiyyətlərdən biri də məhz feodal dövlətinin idarəetmə üsulundakı qanunazidd təzahürlərin tənqidindən ibarətdir. Xaqaninin «Həbsiyyə» adlı əsərlər silsiləsi bu cəhətdən böyük maraq doğurur. Mütəfəkkir həbsxanada

olduğu vaxt sözün həqiqi mənasında feodal dövlətinin zülm və zorakılıq maşını – cəza evi ilə, onun ağır şəraiti ilə qarşılaşmalı olmuşdur. Burada feodal üsul-idarəsinin haqsızlıqlarına qarşı sanki düşmənlə vuruşan kimi vuruşmuş, şərə qalib gəlmək üçün öz məğrurluğunu, əzmini və qürurunu sındırmamışdır. Xaqani yazır:

Hər səhər qalxır göyə ah ilə əfqanım mənim,
Qərq olar qanda şəfəq tək çeymi-giryanım mənim.

Feodal üsul-idarəsinin tənqidinə Nizaminin demək olar ki, bütün əsərlərində toxunulsa da, bu məsələ onun «Yeddi gözəl» poemasında konkret obrazın timsalında daha qabarıq təsvir edilmişdir. Tarixdə qəddar vəzir kimi ad qoymuş Rast-Rövşən vasitəsilə Nizami bütövlükdə feodal dövlət aparatının bütün qüsurlarını açıb göstərmişdir. Mütəfəkkir müstəbid vəziri belə təqdim edir:

Eşitmişəm şahın, üzlərdən iraq,
Bir vəziri vardı Allahdan uzaq.
Rast-Rövşən qoymuş adını, düzü,
Bu addan uzaqdır olduqca düzü.

Feodal üsul-idarəsinin qanunazidd təzahürlərinin tənqidi Tusinin «Əxlaqi-Nasiri» əsərində dövlət siyasəti və dövlətin funksiyaları ilə bağlı mülahizələrində ifadə edilmişdir. Tusinin dövlət idarəçiliyi ilə bağlı mülahizələrində səciyyəvi cəhətlərindən biri müdrik hökmdar məsələsidir. Mütəfəkkirin görmək istədiyi hökmdar öz müdrikliyi ilə yanaşı, ölkədə baş verən hər hansı haqsızlığa qarşı amansız və barışmaz olmalıdır. O, yazır: «Adil padşah və hakim ona görədir ki, haqsızlığın və şərin qarşısını alsın, ədaləti qorumaqda vicdan səsinin xəlifəsi olsun». Siyasi etikanı, siyasi davranış qaydalarını ölkə başçısı üçün müsbət əxlaqi keyfiyyət hesab edən Tusi göstərir ki, hökmdar dövlətin müəyyən etdiyi qayda-qanunlardan xalqın xeyri üçün istifadə etməli, qanunlara uyğun surətdə davranmalıdır.

Orta əsr feodal dövlətində idarəetmənin nöqsanlı cəhətlərinin tənqidi Əvhədinin də ictimai-siyasi görüşlərində az yer tutmur. O da öz böyük sələfləri kimi, feodal cəmiyyətində siyasətin zorakı xarakterini açıb göstərmiş, müasiri olan hökmdarları tədbirli və islahatçı olmağa çağırmışdır. Mütəfəkkir cəmiyyəti idarətetmə işlərində bacarıqlı və təcrübəli adamların çalışmasının tərəfdarı kimi çıxış edərək yazır:

Sənə lazım olsa köməkçi əgər,
Cəlb olsun bu işə ədalətlilər.
Hiyləgər katiblər nəyinə gərək?
Sən ədlə arxalan, onlardan əl çək.

Orta əsr feodal idarəçiliyinin tənqidinə yaradıcılğında xeyli yer vermiş Əssar ölkənin idarə edilməsində yol verilən qanunsuzluqlara

qarşı kəskin mövqe tutmuşdur. Mütəfəkkir belə qənaətə gəlmişdir ki, feodal dövlət mexanizmi əxlaqi keyfiyyətlərin olmadığı mənfur bir aparatdır. Cəmiyyəti yalnız xeyirxahlar idarə edə bilər. O, yazır:

Naəhldən daim sitəm, zülm görər cəmiyyət,
Pak əməllər sayəsində çiçiklənər ədalət.

Feodal dövlət hakimiyyətinin apardığı siyasətlə barışmayan mütəfəkkirlərimizdən biri də Füzuli idi. Bu barışmazlıq onun «Şikayətnamə» əsərində öz parlaq əksini tapmışdır. Füzuli orta əsr feodal hakimiyyət dairələrinin işinə həqiqi mənada ibrətamiz qiymət vermişdir: «Salam verdim – rüşvət deyildir deyə almadılar. Hökm göstərdim – faidəsizdir deyə mültəfit olmadılar…. Dedim: Mənə bərati-təqaüd vermişlər… Dedilər: Ey miskin! Sənin müzamilinə girmişlər və sərmaeyi-tərəddüd vermişlər ki, müdam faidəsiz cidal edəsən və namübarək üzlər görüb, namülayim sözlər eşidəsən». Göründüyü kimi, Füzuli adi bir saray dəftərxanasının simasında feodal idaretmə aparatının bütün mənfurluğunu ifşa etmiş, bu sistemin rüşvət, bürokratiya, tamah, riya və azğınlıq yuvası olduğunu aşkar etmişdir.

Tədqiqat əsərinin **beşinci fəsli «Qanun və qanunçuluq haqqında maarifçi-humanist və demokratik ideyaların siyasi-hüquqi fikrin inkişafında tarixi rolu»** adlanır. Həmin fəsildə XII-XIV əsrlərdə formalaşmış ictimai-siyasi və hüquqi ideyaların təkcə Azərbaycanın deyil, həmçinin Yaxın və Orta Şərqin ictimai-siyasi fikrinə, bəzi istiqamətləri ilə həm də Qərbi Avropada təşəkkül tapan ictimai-siyasi fikir cərəyanlarına, ictimai-siyasi hərəkətlərin ideyalarına müsbət təsirindən bəhs olunur.

Göstərilən əsrlərdə yaşayıb-yaratmış mütəfəkkirlərimizin siyasi və hüquqi ideyaları ən dəyərli bəhrəsini ictimai-siyasi və hüquqi görüşləri XVII-XIX yüzilliklərdə formalaşmış mütəfəkkirlərimizə təsirində vermişdir. Belə ki, Azərbaycanın siyasi və hüquqi fikir tarixində öz qabaqcıl ideyaları ilə diqqəti cəlb edən Saib Təbrizi (1601-1676) Xaqaninin və Füzulinin yaradıcılığından faydalanmışdır. Saib də öz böyük sələfləri kimi dövrünün ədalətsizliklərini ittiham edirdi. O, öz dövrünün ixtiyar sahiblərini kütlənin başı üzərində fırlanan dəyirman daşına bənzədərək yazır:

Varlılar hakim olan dövrandan insaf görmə,
Çün dəyirman fırlanır, zor altdakı daşa düşür.

Tusinin siyasi və hüquqi təlimi xüsusilə XIX yüzillikdə meydana gəlmiş ideyaların əsas qida mənbələrindən biri olmuşdur. Onun dövlətin funksiyaları, idarəçilik formaları, cəmiyyətin sosial strukturu, qanun və qanunçuluq, qanunvericilik, ədalət mühakiməsi, cinayət və cəza haqqında fikirləri A.A.Bakıxanovun, M.F.Axundovun və

Q.Zakirin analoji fikirlərinin formalaşmasında və inkişafında əhəmiyyətli rol oynamışdır.

XVII əsrin görkəmli mütəfəkkirlərindən biri olan Məsihi (1575-1655), Qövsi Təbrizi Füzulinin yaradıcılığından bəhrələnmişlər. Bu mütəfəkkirlərin ictimai-siyasi görüşlərində despotizmin, feodal məmurlarının özbaşınalıqlarının tənqidi mühüm yer tutmuşdur. Onları tərəddüd etmədən Füzuli məktəbinin davamçıları adlandırmaq olar.

Göstərilən dövr Azərbaycan mütəfəkkirlərinin ictimai-siyasi ideyaları M.V.Vidadinin və M.P.Vaqifin yaradıcılığında dərin izlər buraxmışdır. Vaqifin əsərlərinin XVIII yüzilliyin ictimai-siyasi həyatından təcrid edilmiş halda qiymətləndirmək qeyri-mümkündür. O, zəmanəsinin haqsızlıqları, işğalçı dövlət siyasəti və insan hüquqlarının pozulması ilə hesablaşmayan mütəfəkkir olmuşdur.

Təhlillər göstərir ki, siyasi və hüquqi fikir tariximizin zəngin səhifələrindən birini təşkil edən qanun və qanunçuluq problemi tükənməz mədəni-mənəvi sərvətimizin həmişə diqqət mərkəzində olan problemlərindin biri kimi tədqiqatçıların nəzərini daim cəlb edəcəkdir.

Tədqiqat əsərinin **nəticə** hissəsində təhlillər prosesində əldə edilmiş yekun müddəalar öz əksini tapmışdır.

Dissertasiya tədqiqatının əsas məzmunu müəllif tərəfindən dərc etdirilmiş aşağıdakı əsərlərdə öz ifadəsini tapmışdır.

1. «Kitabi-Dədə Qorqud» ictimai-siyasi fikrimizin möhtəşəm abidəsidir. Bakı Universitetinin Xəbərləri, № 1-2, s. 197-211.
2. Azərbaycanın siyasi və hüquqi fikir tarixində qanun və qanunçuluq problemi. Bakı Universitetinin Xəbərləri, № 3, 1999, s. 127-134.
3. Проблема закона и законности в политико-правовой мысли Азербайджана. Правовая реформа в Азербайджане: пути реализации, Баку, 1999, с. 54-55.
4. «Kitabi-Dədə Qorqud» ictimai-siyasi fikrimizin möhtəşəm abidəsidir. Respublika elmi konfransı, Bakı, 1999, s. 22-23.
5. Azərbaycanın orta əsrlər siyasi-hüquqi fikrində qanun və qanunçuluğa dair utopik motivlər. Sosial-siyasi problemlər, XI buraxılış, Bakı, 2004, s. 247-254.
6. Azərbaycanın orta əsrlər siyasi-hüquqi fikrində qanun və qanunçuluğa dair ideyalara islamın təsiri. Qloballaşma və Azərbaycan mədəniyyəti, II Respublika Elmi praktiki konfransının materialları, Bakı, 2004, s. 236-245.
7. Некоторые вопросы законности и правосудия в политико-правовой мысли Азербайджана средних веков. Keçid dövründə

AR-da dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi, II buraxılış, Bakı, 2005, s. 11-17.
8. Azərbaycanın orta əsrlər siyasi-hüquqi fikrində qanun və qanunçuluğa dair ideyaların humanist məzmunu. Keçid dövründə AR-da dövlət və hüquq quruculuğunun aktual problemləri. EMM, 13-cü buraxılış, Bakı, 2006, s. 16-18.
9. Azərbaycanın orta əsrlər siyasi-hüquqi fikrində qanun və qanunçuluğa dair ideyaların demokratik cəhətləri. Tarix və onun problemləri, № 2, Bakı, 2006, s. 223-229.
10. Azərbaycanın orta əsrlər siyasi-hüquqi fikrinə ictimai-siyasi hərəkətlərin təsiri. AMEA, Fəlsəfə və Siyasi-hüquqi Tədqiqatlar İnstitutu. EƏ, № 1/3, Bakı, 2006, s. 158-162.
11. Nizami Gəncəvinin ictimai-siyasi görüşlərində humanizm ideyaları. AMEA, Fəlsəfə və Siyasi-hüquqi Tədqiqatlar İnstitutu, EƏ, 2/4, Bakı, 2006, s. 136-140.
12. N.Tusinin hüquqi görüşlərində qanunçuluğa və ədalət mühakiməsinə münasibət. Qanun, № 6, 2006, s. 83-85.
13. Füzulinin ictimai-siyasi görüşlərində dövrün qanunlarının tənqidi. Qanun, № 7, 2006, s. 69-71.
14. N.Tusinin qanunlarının mahiyyəti haqqında, Qanunçuluq, № 5, 2006, s. 45-48.
15. Azərbaycanın XI-XII əsrlər siyasi-hüquqi fikrinin səciyyəvi cəhətləri. Tarix və onun problemləri, № 3, Bakı, 2006, s. 34.
16. Azərbaycanın siyasi-hüquqi fikrində qanun və qanunçuluğun etik əsasları. Tarix və onun problemləri, № 4, 2006.
17. Nizaminin sosial utopiyası və ədalətli qanun idealı. Tarix və onun problemləri, № 5, Bakı, 2006.
18. Xaqani Şirvaninin ictimai-siyasi görüşlərində feodal özbaşınalıqlarının tənqidi. AMEA, Fəlsəfə və Siyasi-hüquqi Tədqiqatlar İnstitutu, EƏ, № 3/5, Bakı, 2006.
19. XII-XVI əsrlərdə Azərbaycanda ideal cəmiyyətə dair görüşlərdə qanun və qanunçuluq məsələsi. Qanun, № 8, s. 3-5.
20. Azərbaycanın orta əsr mütəfəkkirlərinin siyasi-hüquqi görüşlərində feodal qanunlarının tənqidi. Qanun, № 9-10, 2006, s. 3-6.
21. Azərbaycanda orta əsrlərdə feodal üsul-idarəsinin qanunazidd təzahürlərinin tənqidi. Qanun, № 11, 2006.
22. İslamın siyasi-hüquqi ideologiyası və Azərbaycanda siyasi-hüquqi fikir. AMEA, Şərq və Qərb, 2006.
23. Azərbaycanın qədim siyasi-hüquqi abidələrində qanun və qanunçuluq məsələsi. YUNESKO-nun təsis etdiyi «Ümumdünya

fəlsəfə günü»nə həsr edilmiş Respublika elmi konfransının materialları. Bakı, 2006, s. 87-92.
24. Siyasi və hüquqi təlimlər tarixi (metodiki göstəriş). BDU, 1998, 48 s. (Qasımzadə ilə birgə).
25. Azərbaycanın siyasi və hüquqi təlimlər tarixi (metodiki göstəriş). BDU, 2000, 25 s.
26. Правовые воззрения Мухаммеда Насираддина Туси.Закон и право №2, Москва, 2012, 23-27 s.
27. Вопросы законности и правосудия в политико-правовых воззрениях мыслителей С.Урмеви, Н.Туси и А.Марагеи XIII-XIV вв. Законы России №4, Москва, 2012, 103-108 s.
28. Характерные особенности политико-правовой мысли Азербайджана в XII-VIII вв. Материалы XIV Междунардной научно-практической конференции 15 февраля -15 марта 2012 г, Орел, 61-68 s.
29. Azərbaycanın orta əsrlər siyasi-hüquqi fikrində qanun və qanunçuluğa dair ideyalara islamın təsiri. Turan Strateji Araşdırmalar Mərkəzi Uluslararası Bilimsal Hakemli Mevsimlik Dergi. 61-68 s.
30. Ə.Marağalı və Ə.Təbrizinin siyasi-hüquqi görüşləri. Bakı, Azərnəşr, 1994, 72 s.
31. Nəsirəddin Tusinin siyasi-hüquqi görüşləri. Bakı, Azərnəşr, 1995, s.148.
32. Hürufiliyin siyasi-hüquqi ideologiyası. Bakı, Qanun, 1998, 32 s.
33. «Kitabi-Dədə Qorqud» ictimai-siyasi fikrimizin möhtəşəm abidəsidir. Bakı, Qanun, 1999, 32 s.
34. A.A.Bakıxanovun ictimai-siyasi görüşləri. Bakı, Qanun, 2000, 68 s.
35. N.Tusi dövlət, siyasət və qanun haqqında. Bakı, Qanun, 2001, 265 s.
36. Qədim Azərbaycanda siyasi və hüquqi fikir (Ən qədim dövrdən VIII əsrədək). Bakı, Qanun, 2003, 135 s.
37. XII-XVI əsrlərdə Azərbaycanın siyasi-hüquqi fikrində qanun və qanunçuluq problemi. Bakı, 2005, 376 s.
38. Qədim Şərq quldarlıq dövlətlərində siyasi və hüquqi fikir. Bakı, «Nurlan», 2006, 264 s.
39. Hüquq ensiklopediyası. Bakı, Qanun, 2007, 1108 s.
40. Hüquq sosiologiyası. Bakı, Qanun, 2012, 504 s.
41. Azərbaycanın siyasi-hüquqi fikrində dövləti idarəetməyə dair ideyalar. Bakı, Qanun, 2011, 280 s.
42. Azərbaycanın ictimai-siyasi fikrində sosial ədalət ideyası. Bakı, «Səda», 2008, 352 s.

*А.И.Гулиев*

# ПРОБЛЕМА ЗАКОНА И ЗАКОННОСТИ В ПОЛИТИКО-ПРАВОВОЙ МЫСЛИ АЗЕРБАЙДЖАНА В XII-XVI ВЕКАХ

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, пяти глав, охватывающих 12 параграфов, заключения и списка использованной литературы.

Во введении диссертационной работы обоснована актуальность темы исследования, указана степень разработанности темы, выражены цель и задачи, предмет и объект, метод и методология, научная новизна исследования, указаны положения, выносимые на защиту, приведены данные о теоретическом и практическом значении данного исследования, а также сведения об апробации результатов диссертационного исследования.

Первая глава диссертационной работы, состоящая из четырех параграфов, называется «Общая характеристика идей закона и законности в Азербайджане в начале средних веков». Первый параграф этой главы -«Просвещенские корни идей закона и законности» - посвящен анализу идей, возникших в Азербайджане в эпоху Зороастризма. Во втором параграфе первой главы, озаглавленном «Этические основы идей закона и законности», анализируются этические идеи, заложенные в «Авесту». В третьем параграфе первой главы - «Роль общественно-политических движений в формировании идей закона и законности» - рассматриваются идеи зарванизма, манизма, маздакидов и хурремидов. Четвертый параграф называется «Влияние Ислама на идеи закона и законности». Здесь исследовано влияние политико-правовой идеологии Ислама на идеи закона и законности.

Вторая глава диссертационной работы, состоящая из трех параграфов, называется «Азербайджанский Ренессанс и его проявления в политико-правовой мысли». Первый параграф этой главы — «Гуманистическое содержание идей закона и законности» - посвящен анализу политико-правовых идей азербайджанских мыслителей XI-XII веков. Во втором параграфе первой главы, озаглавленном «Утопические мотивы в идеях закона и законности», исследуется вопросы закона и законности в утопических взглядах

Низами Гянджеви. В третьем параграфе данной главы «Вопросы закона и законности во взглядах об идеальном обществе» анализируются вопросы законности во взглядах Низами, Насиреддина Туси и Ассара Тебризи об идеальном обществе.

Третья глава диссертационной работы, также состоящая из трех параграфов, называется «Развитие взглядов о законе и законности на новых основах». Первый параграф этой главы - «Демократические черты взглядов о законе и законности» - посвящен исследованию демократических черт политико-правовых во взглядах идей азербайджанских мыслителей XIII-XIV веков. Во втором параграфе, озаглавленном «Некоторые вопросы законности и правосудия», анализируются размышления Н.Туси и Эвхеди Марагаи о правосудии. В третьем параграфе этой главы - «Вопросы закона и законности в зеркале средневекового романтизма» - исследуются, в основном, идеи Физули о законе и законности.

Четвертая глава диссертационного исследования называется «Взгляды на законность в борьбе с правящей феодальной политико-правовой идеологией». Эта глава состоит из двух параграфов, первый из которых называется «Критика законов, оправдывающих недостатки общества и феодальное самоуправство». В первом параграфе исследуются идеи Хагани Ширвани, Низами, Насиреддина Туси и хуруфизма, критикующие беззакония, совершаемые в современной им эпохе.

Второй параграф четвертой главы называется «Критика противозаконных проявлений феодального режима правления». В этом параграфе исследуются идеи азербайджанских мыслителей XII-XIV столетий, связанные с несоблюдением законов того времени.

Пятая глава диссертационного исследования называется «Историческая роль просветительско-гуманистических и демократических идей о законе и законности в развитии политико-правовой мысли».В этом главе исследуется положительное влияние идей о законе и законности в политико-правовых взглядах азербайджанских мыслителей XII-XIV столетий на формирование аналогичных идей  азербайджанских мыслителей XVII-XIX веков (Саиб Тебризи, Молла Вели Видади, Молла Панах Вагиф, Касум бек Закир, Аббаскули ага Бакиханов, Мирза Фатали Ахундов).

В заключительной части исследования отражены основные выводы, сделанные в процессе анализа, и выдвинутые на их основе мнения и рекомендации.

*A.I.Guliyev*

# LAW AND LAWFULNESS PROBLEM IN POLITICAL AND LEGAL THOUGHT OT AZERBAIJAN IN THE XII-XVI CENTURIES

## SUMMARY

The dissertation work consists of an introduction, 5 chapters, including 12 paragraphs, conclusion and literature used.

In the introduction of the dissertation work the actuality of the subject of the research is based, the degree of working out of the subject is elucidated, aim and tasks, subject and object, method and methodology, scientific novelty of the research are expressed, theses introduced to defence are shown, data on the theoretical and practical importance, information on the approbation of results of this dissertation research are given as well.

The first chapter of the dissertation, consisting of four paragraphs, is called «General description of the ideas of law and lawfulness in Azerbaijan at the beginning of the Middle Ages». The first paragraph of this chapter» - «Enligtmental roots of the ideas of law and lawfulness» - is devoted to the analysis of ideas, coming into being in Azerbaijan in the epoch of Zoroastrism. In the second paragraph of the first chapter titled «Ethic bases of the ideas of law and lawfulness» is analyzed the ethic ideas given in «Avesta». In the third paragraph of the first chapter - «Role of social-political movements in formation of the ideas of law and lawfulness» - is considered the ideas of Zarvanizm, Manizm, Mardakids and Khuramids. The fourth paragraph is called «Influence of Islam on the ideas of law and lawfulness». The influence of political and lawfull ideology of Islam on the ideas of law and lawfulness is examined there.

The second chapter of the dissertation, consisting of three paragraphs, is called «The Azerbaijan Renaissance and its displayings in political and lawful thought». The first paragraph of this chapter - «Humane content of the ideas of law and lawfulness» - is devoted to analysis of political and lawful ideas of the Azerbaijan thinkers of the XI-XII centuries. In the second paragraph of the first chapter «Utopian motives in the ideas of law and lawfulness» is studied the questions of law and lawfulness in the Utopian views of Nizami Ganjavi. In the third paragraph of the given chapter - «Questions of law and lawfulness in the views on

ideal society» is analyzed the questions of lawfulness in the views of Nizami, Nasiraddin Tusi and Assar Tabrizi about the ideal society.

The third chapter of the dissertation, also consisting of three paragraphs, is called «Development of views related to law and lawfulness on the new bases». The first paragraph of this chapter titled «Democratic features of the ideas on law and lawfulness» is devoted to study of democratic features of political and lawful views the ideas of Azerbaijan thinkers of the XIII-XIV centuries. In the second paragraph called «Some questions of lawfulness and justice» is analysed N.Tusi and Avhadi Maraghai's thoughts on the lawfulness. In the third paragraphs of this chapter - «Questions of law and lawfulness in the mirror of the Middle Ages romantism» - is studied, mainly, Fizuli's ideas on the law and lawfulness.

The fourth chapter of the dissertation work is called «Views on lawfulness in struggle with ruling feudal political and lawful ideology». The chapter consists of two paragraphs, the first of which is called «Criticism of laws, proving the defects of society and feudal arbitrariness». In the first paragraph is studied Khagani, Shirvani, Nizami, Nasiraddin Tusi's ideas and Hurifism, criticizing the lawlessness, being performed in their epoch.

The second paragraph of the fourth chapter is called «Criticism of illegal displayings of governing of the feudal regime». In this paragraph is studied the ideas of Azerbaijani thinkers of the XII-XIV centuries connected with non-odservance of the laws of that period.

The fifth chapter of the dissertation work is called «Historical role of enlightenment-humane and democratic ideas on the law and lawfulness in development of political-lawful thoughts».

In this chapter is studied the positive influence of the ideas related to law and lawfulness on political and lawful views of Azerbaijani thinkers of the XII-XIV centuries in formation of analogical views of Azerbaijani thinkers of the XVII-XIX centuries (Saib Tabrizi, Molla Vali Vidadi, Molla Panah Vagif, Gasim bay Zakir, Abbasguli Agha Bakikhanov, Mirza Fatali Akhundov).

In the concluding part of the reseach is presented the main conclusions, made in the course of analysis, and opinions and recommendations suggested on their basis.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

***На правах рукописи***

**АГШИН ИСАБАЛА оглы ГУЛИЕВ**

# ПРОБЛЕМА ЗАКОНА И ЗАКОННОСТИ В ПОЛИТИКО-ПРАВОВОЙ МЫСЛИ АЗЕРБАЙДЖАНА В XII-XVI ВЕКАХ

**Специальность: 5606.01 – теория и история государства и права; политические учение о праве и государстве**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации, представленной на соискание ученой степени доктора наук по праву**

**БАКУ – 2016**